

Milli azadlıqdan şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

24 oktyabr 2025-ci il, cümə

№ 193 (7020)

Qiyməti 60 qəpik




## Azərbaycan Prezidenti Macarıstan xalqını təbrik edib

Bax səh. 2

# TARİXİ SƏRƏNCAM - bir əsr sonra yenidən Bakıda

Bax səh. 3









# Sülh, əməkdaşlıq və inkişaf naminə "Cənubi Qafqaz evi"

Bax səh. 2

## 9 ayda 2,5 milyard manat

Maliyyə Nazirliyi (MN) 2025-ci ilin yanvar-sentyabr aylarında işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpasına dövlət büdcəsindən ayrılmış vəsaitin həcmini və büdcə xərclərinin strukturunu açıqlayıb. Ötən 9 ayda Qarabağ və Şərqi-Zəngəzurda sürətli bərpa-quruculuq işlərinə 2 milyard 567,5 milyon manat xərclənib. Həmin vəsaitin 2 milyard 234,8 milyon manatı infrastruktur layihələrinə, 291,7 milyon manatı sosial layihələrə, 41 milyon manatı isə ərazilərin minalardan təmizlənməsinə yönəldilib.

Xərc portfelinin tərkibində infrastruktur layihələri üzrə avtomobil yollarının layihələndirilməsi və tikintisinə 1 milyard 525,1 milyon manat, yeni yaşayış komplekslərinin tikintisinə 461,1 milyon manat, dəmir yolu xətlərinin tikintisinə 107,3 milyon manat, elektrik təchizatı işlərinə 48 milyon manat, su xətləri, kollektorlar və qurğularına 44,3 milyon manat, sənaye parkları və infrastruktura 27,7 milyon manat, geoloji kəşfiyyat işlərinə 7,1 milyon...

Bax səh. 4

## 193 ölkə bir çətir altında

Təqvimdə elə günlər var ki, bütün dünya üçün önəmlidir. 24 oktyabr məhz belə gündür. Tarixin bu günündə - 1945-ci il oktyabr ayının 24-də Birləşmiş Millətlər Təşkilatı (BMT) təsis edilib. Bu həmin dövr idi ki, ayrı-ayrı ölkələrdə milyonlarla insanın həyatına son qoyan, humanitar, ekoloji fəlakətlərə yol açan İkinci Dünya müharibəsi təzəcə başa çatmışdı. Dünya anlayırdı ki, bəşəriyyətin nicatı həmrəylikdə, münaqişələrin, yaranan çağırışların həllinin birlikdə tapılmasında və məsuliyyətin bölüşdürülməsindədir. Beləliklə, qeyd olunan tarixdə dünyanın ən güclü 50 dövləti tərəfindən bir sıra hallarda "Ümumdünya Hökuməti" də adlandırılan BMT yaradılıb.

BMT-nin fəaliyyəti 3 sütun üzərində qurulub: Sülh və təhlükəsizlik, inkişaf və insan hüquqları. Hazırda dünyanın 193 ölkəsi, 500 asılı ərazi, Antarktida materiki, Qərbi Səhra, Dünya okeanı, bir sözlə yer kürəsinin 80 faiz ərazisi BMT-nin mandat sisteminə daxildir...

Bax səh. 5

## Cavid irsi - əbədiyyət işığı!

Bu gün ədəbiyyatımızın parlaq siması, şair və dramaturq Hüseyn Cavidin anadan olmasından 143 il ötür. O, təkcə Azərbaycan ədəbiyyatının deyil, bütün türk dünyasının qəlbinə həkk olmuş nadir şəxsiyyətlərdəndir. 1882-ci il oktyabrın 24-də anadan olan H.Cavid türk düşüncə dünyasında silinməz izlər qoyan bir şəxsiyyətdir. Onun əsərlərində insanın daxili aləmi, azadlıq və ədalət uğrunda mübarizə, cəmiyyətin və zamanın sınaqlarından keçən insanın taleyi kimi mövzular diqqət mərkəzindədir. Cavid irsi bu gün də dərin mənalarla doludur. Onun həyatına və yaradıcılığına dair tədqiqatlar yalnız ədəbiyyatın və fəlsəfənin inkişafını deyil, həm də bir xalqın öz kimliyini anlamağa imkan verir. Cavidin adı yalnız Azərbaycan ədəbiyyatında deyil, bütün Türk dünyasında hər zaman böyük bir hörmətlə anılacaq!

Hüseyn Cavid son dərəcə dərin məzmunlu yaradıcılığı ilə çoxəsrlik Azərbaycan ədəbiyyatı xəzinəsinə tarixi-mədəni dəyərlər bəxş etmiş qüdrətli söz sənətkarıdır. O, Şərqin zəngin...

Bax səh. 5




Bax səh. 7

# Sülh, əməkdaşlıq və inkişaf naminə “Cənubi Qafqaz evi”

## Bakı regionda yeni reallıqlar formalaşdırır: tranzit yüklərin buraxılışının şifrəsi...

**Cənubi Qafqaz son 5 ildə dərin və köklü transformasiya mərhələsindən keçir. Azərbaycan bu transformasiyanın həm memarı, həm də aparıcı qüvvəsi kimi çıxış etməkdədir. Vətən müharibəsində əldə edilən Qələbə təkcə hərbi-siyasi deyil, həm də strateji düşüncənin, diplomatik uzaqgörənliyin və iqtisadi potensialın sintezinin təntənəsi idi - qələbədən sonra Bakı bölgədə yeni geosiyasi nizamın əsas qaydalarını müəyyənləşdirdi: bu qaydaların mərkəzində sülh, qarşılıqlı fayda və əməkdaşlıq dayanır. Azərbaycanın regionda formalaşdırdığı bu yeni fəlsəfə - “Cənubi Qafqaz evi” konsepsiyası - artıq praktik nəticələr doğurmaqdadır. Qalib ölkə kimi Azərbaycan revanşizm və təzyiq yox, əməkdaşlıq və qarşılıqlı münasibətlər mühiti yaratmağa üstünlük verir. Ermənistanla tranzit əlaqələrinin bərpası və yük tədarükünə icazə verilməsi bu siyasətin məntiqi nəticəsidir. Xatırladaq ki, Prezident İlham Əliyev Qazaxıstana səfəri çərçivəsində mətbuata bəyanatında bildirib ki, Azərbaycan Ermənistana işğaldan bəri mövcud olan yüklərin tranziti məhdudiyyətlərini aradan qaldırıb: “Belə bir ilk tranzit Qazaxıstanın Ermənistana taxıl yükü olub. Zənnimcə, bu, həmçinin Azərbaycan ilə Ermənistan arasında sülhün yalnız kağız üzərində deyil, həm də praktikada olduğunun yaxşı göstəricisidir”. Bu addım həm İrəvana, həm də bütün regiona aydın mesaj göndərdi: Bakı sülhün memarıdır və bu sülh təkcə siyasi yox, iqtisadi və sosial reallığa çevrilməlidir - Cənubi Qafqazda son illərdə yaranan yeni geosiyasi mənzərə artıq köhnə təsəvvürləri tamamilə aradan qaldırmalıdır. Bakı qlobal güclərin təsir zonasından asılı olmayan, milli maraqlara söykənən müstəqil regional siyasət xətti müəyyənləşdirib və bu siyasət artıq Cənubi Qafqazın gələcəyini müəyyən edən əsas parametrləri formalaşdırır.**

# Prezident İlham Əliyev: Azərbaycan ilə Macarıstan arasında əməkdaşlıq gündən-günə dərinləşir



Prezident İlham Əliyev Macarıstanın milli bayramı münasibətilə bu ölkənin Baş naziri Viktor Orbanı və Macarıstan xalqını təbrik edib, ən xoş arzularını çatdırıb.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısının təbrik məktubunda qeyd edilib: “Dost ölkə və strateji tərəfdaşımız olan Macarıstanla dövlətlərarası əlaqələrimizin bugünkü səviyyəsi məmnunluq doğurur. Şübhəsiz ki, qarşılıqlı səfərlər, müntəzəm təmaslar, sıx əməkdaşlığımız bu münasibətlərin daha sürətlə inkişafına və möhkəmlənməsinə şərait yaradır.

Hazırda ikitərəfli gündəliyimizdə duran məsələlərin əhatə dairəsi çox genişdir. Sevindirici haldır ki, Azərbaycan ilə Macarıstan arasında əməkdaşlıq gündən-günə dərinləşir, enerji sahəsində səmərəli tərəfdaşlıq münasibətləri yüksələn xətt üzrə inkişaf edir. Siyasi dialoqumuzun intensivliyi bütün sahələrdə qarşılıqlı fəaliyyətimizin yeni məzmunla zənginləşməsində mühüm rol oynayır.

Beynəlxalq təşkilatlar, xüsusilə də Türk Dövlətləri Təşkilatı çərçivəsində qarşılıqlı fəaliyyətimizi ayrıca qeyd etmək istərdim. Bu il ərzində mənim Budapeştdə, Sizin isə Qəbələdə təşkilatın zirvə görüşlərində iştirakımız xalqlarımız və dövlətlərimiz arasında birliyin və həmrəyliyin daha da möhkəmlənməsinə, çoxtərəfli müstəvidə əlaqələrimizin genişlənməsinə verdiyimiz əhəmiyyətin göstəricisidir.

Əminəm ki, Azərbaycan-Macarıstan dostluq münasibətlərinin və strateji tərəfdaşlığının xalqlarımızın iradəsinə uyğun olaraq daha da gücləndirilməsi və dərinləşdirilməsi yolunda birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik”.

Azərbaycan Prezidenti belə bir əlamətdar gündə Viktor Orbana möhkəm cansağlığı, xoşbəxtlik, dövləti fəaliyyətində uğurlar, dost Macarıstan xalqına daim əmin-amanlıq və rifah arzulayıb.

## Azərbaycan: Cənubi Qafqazı müstəqil və təsirli aktora çevirən güc mərkəzi...

Bəli, son beş ildə Azərbaycan Cənubi Qafqaza müstəqil və azad qərar verən aktor kimi tam fərqli status qazandırıb. Bakının səyləri nəticəsində artıq regional siyasət kənar mərkəzlərin müdaxiləsi ilə




deyil, milli maraqların diktəsi ilə müəyyənləşdirilir. Bu mərhələdə Azərbaycanın fəaliyyətinin əsas istiqamətlərinə nəzər yetirsək:

-Təhlükəsizlik arxitekturasının yenidən qurulması: Azərbaycan müharibədən sonra bölgədə sülh və sabitlik üçün yeni təhlükəsizlik formatı formalaşdırdı. Xarici hərbi və siyasi təsir mərkəzlərinin bölgədəki təsiri minimuma endirildi. Bakı həm regional balansın təminatçısı, həm də təhlükəsizlik zəmanətçisi rolunu üzərinə götürdü. Bu, Cənubi Qafqazda illərlə hökm sürən qeyri-müəyyənlik dövrünə son qoydu.

- Yeni iqtisadi və ticarət şərtlərinin formalaşdırılması: Azərbaycan enerji istehsalçısı və ixrac edən ölkə olmaqla yanaşı, həm də regional logistika və nəqliyyat mərkəzinə çevrildi. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars, Orta Dəhliz və Zəngəzur dəhlizi (TRİPP) istiqamətləri artıq vahid iqtisadi sistemin elementləri sayılır. Bu sistem həm Avrasiyanın Şərq-Qərb ticarət xəttini gücləndirir, həm də region dövlətlərinə bir-birinə bağlı iqtisadi məkan təqdim edir.

Cənubi Qafqazı qlobal diqqət mərkəzinə gətirmə: Azərbaycan Şərq-Qərb ticarət koridorunun strateji həlqəsini öz ərazisində birləşdirməklə beynəlxalq diqqəti bölgəyə yönəltdi. COP29-a ev sahibliyi, yaşıl enerji layihələri və enerji tranziti sahəsində irəli sürülən təşəbbüslər Azərbaycanın regionaldan qlobal səviyyəyə yüksələn təsirinin göstəricisidir.



Azərbaycanın gələcək perspektivdə Cənubi Qafqazın uğurlu inkişafı ilə bağlı apardığı siyasi kursda xarici əlaqələri də mühüm təsir yaradır:

- Türkiyə ilə strateji müttəfiqlik;

- Çin ilə imzalanan strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə;

- Avropanın enerji təhülkəsizliyində oynadığımız rol.

Bu kimi töhfələr bütün mənalarda ümumən Cənubi Qafqaz coğrafiyasının inkişaf perspektivinin əsas ştrixlərinə çevrilir. Yeni nizamda siyasi üstünlüklər iqtisadi diversifikasiya ilə möhkəmləndirilir ki, burada da Azərbaycanın rolu birmənalıdır. Yeni iqtisadi vəhdət bölgənin ümumi siyasi gücünü də artırır - bu isə vurğulandığı kimi, Azərbaycanın apardığı siyasət nəticəsində Cənubi Qafqazın müstəqil aktor kimi çıxışını əsaslandırır. İllərdir ki, bir sıra xarici müdaxilə cəhdlərinə qarşı açıq mübarizə aparan və bütün proseslərdən qalib ayrılan Bakı mühüm presedent yaradır - ümumən bölgə üçün yeni inkişaf istiqamətləri müəyyənləşdirilir. Bölgədəki təhdidləri dəf etmək və yeni siyasi təşəbbüslərlə irəliləmək məqsədi Azərbaycanın bütövlükdə bölgə üçün hazırladığı strateji yol xəritəsinə çevrilməkdədir. Bu, həm regional tərəfdaşlığın yeni müstəvidə inkişafına dəstək verir, həm də Cənubi Qafqazın güc mərkəzi kimi özünü təsdiqləməsində əsas yaradır.



## Ermənistan üçün yeni mərhələnin başlanğıcı

Ermənistana gəldikdə isə, burada vəziyyət daha fərqlidir. Yeni mərhələdə İrəvanın əsas hədəfi məhz sülh olmalıdır - əks halda, gözlənilən daxili və xarici kataklizmlərdən yayınmaq qeyri-mümkün olacaq. Vaşinqtonda sülh sazişinin paraflanmasının ardından başlanan mərhələ Ermənistanın özünü regional təcriddən qurtarması üçün real şansı sayılır - bu, ölkə daxilində siyasi gərginliklərə də öz təsirini göstərə bilər. O ki qaldı, Ermənistanın ümumən bölgənin xarici siyasət diaqrammasında tutacağı yerə, İrəvan özünün “siyasi şıltaqlıqlarından” əl çəkməyə məhkumdur. Ermənistanla bağlı son qərar - yüklərin tranzit buraxılışına razılığın verilməsi İrəvan üçün yaradılan bir şansdır. Yeri gəlmişkən, Ermənistanın Baş naziri Nikol Paşinyan Prezident İlham Əliyevə Azərbaycanın Ermənistana yüklərin tranzitinə dair bütün məhdudiyyətləri aradan qaldırmasına görə təşəkkür edib. O, Tbilisidə keçirilən V Tbilisi Beynəlxalq İpək Yolu Forumunda çıxışı zamanı bildirib. “Prezident İlham Əliyev dünən elan edib ki, Azərbaycan öz ərazisindən Ermənistana malların tranzitinə qoyulan məhdudiyyətləri aradan qaldırır. Bu, çox mühüm bəyanatdır və mən bu addımına görə Azərbaycan Prezidentinə minnətdarlığımı bildirmək istəyirəm. Mən həm də buna görə Qazaxıstan Prezidentinə və Gürcüstanın Baş nazirinə minnətdarlığımı ifadə edirəm”, - deyə Paşinyan vurğulayıb.




Bəli, Bakının bu humanist davranışı olduqca strateji bir addımdır. Azərbaycan bu addımla bir neçə strateji mesaj verdi:

- Revanşizmə yox, əməkdaşlığa üstünlük: Bakı qalib tərəf kimi qarşı tərəfi təzyiq altında saxlamaq niyyətində deyil. Əksinə, Ermənistanın iqtisadi və kommunikasiya baxımından açıq mühitdə inkişaf etməsi, bölgənin sabitlik və əməkdaşlıq modelinə daxil olması üçün Azərbaycan yeni imkanlar açır.

- İrəvan üçün dövlətçilik imkanı: Sülh və əməkdaşlıq şəraiti Ermənistanın özünü müstəqil dövlət kimi təqdim etməsinə fürsət yaradır. Xarici təsirdən asılılığı azaldaraq, real iqtisadi tərəfdaşlıqlara yönəlmək Ermənistanın dövlətçilik dayaqlarını möhkəmləndirəcək.

- Zəngəzur dəhlizi (TRİPP) - yeni iqtisadi nəfəs: Zəngəzur dəhlizi (TRİPP) təkcə Azərbaycan üçün deyil, Ermənistan üçün də böyük iqtisadi imkanlar yaradır. Bu dəhliz vasitəsilə Ermənistan Mərkəzi Asiya və Türk dünyası ilə birləşəcək, Şərq bazarlarına çıxış əldə edəcək. Azərbaycanın sürətli inkişaf tempi isə İrəvan üçün nümunəvi model rolunu oynayır.

- Türkiyə amili və regional sabitlik: Azərbaycan və Türkiyə arasındakı müttəfiqlik regionda sülhün əsas dayağıdır. Ermənistan sülhə imza atmaqla həm Ankara ilə münasibətlərdə yeni səhifə aça, həm də Cənubi Qafqazın bütövlükdə türkdilli dünyaya inteqrasiya prosesindən faydalana bilər.

Bunun üçün isə Ermənistan bölgənin ümumi inkişaf strategiyasının hissəsi olaraq çıxış etməlidir - başqa sözlə, bölgədə gedən proseslərdə “maneolan rol”da deyil, “köməkedici rol”da olmalıdır. Yəni bütün manipulyativ cəhdlər kənara qoyulmalı, dinc və sülh, heç bir təhdidin olmaması şəraitində yaşamaq üçün hüquqi zəmin formalaşdırmalı (konstitusiya dəyişikliyinə imza atmalı), regional əməkdaşlığın halqasına çevrilmək üçün cəhdlər göstərməlidir.

## Gürcüstan bölgədəki yeni münasibətlər sisteminin tərəfdarıdır

Vurğulanmalıdır ki, Cənubi Qafqazın hər üç ölkəsi Azərbaycanın yaratdığı yeni mərhələnin - sabitlik və inkişaf mərhələsinin yeni nizamda daha da şaxələndirilməsində, genişləndirilməsində maraqlı olmalıdırlar. Çünki bu strateji əməkdaşlıq mühiti regionun təhlükəsizliyinin, sülhün və sabitliyin daha yüksək səviyyədə təminatının qarantı kimi çıxış edir. Görünən budur ki, Gürcüstan da bu məsələdə maraqlıdır - bu həm ictimaiyyət, həm də dövlət rəsmiləri tərəfindən səsləndirilir. Məsələn, bir neçə gün öncə Gürcüstanın baş naziri İrakli Kobaxidze azərbaycanlı və erməni həmkarlarının 5-ci Tbilisi İpək Yolu Forumunda iştirakına görə minnətdarlığını bildirib. O, onların forumda iştirakının xüsusi əhəmiyyətini qeyd edib: “Biz çox şadıq ki, strateji tərəfdaşlarımız olan Azərbaycan və Ermənistanın baş nazirləri bu mühüm tədbirdə iştirak edirlər”.

Vurğulanmalıdır ki, Cənubi Qafqazda sülh və əməkdaşlıq modelinin davamlılığı üçün Gürcüstanın rolu mühümdür. Tbilisi dəfələrlə bölgədə sülh prosesinə dəstək verdiyini bildirib, hətta nizamlanma proses ində vasitəçilik rolunu təklif edib - bu, Gürcüstanın səmimi mövqeyindən qaynaqlanır. Azərbaycanla Gürcüstan arasında strateji tərəfdaşlıq yalnız diplomatik deyil, tarixi və iqtisadi köklərə malikdir. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu və Orta Dəhliz layihələri bu əməkdaşlığın təməlini təşkil edir. Bu layihələr təkcə iki ölkənin deyil, bütün Cənubi Qafqazın iqtisadi təhlükəsizliyinin təminatçısıdır. Gürcüstan hazırda öz gələcəyini regional enerji və nəqliyyat layihələri ilə sıx bağlayır. Qara dəniz limanları vasitəsilə Avropa ilə Asiya arasında əlaqələrin mərkəzinə çevrilmək istəyən Gürcüstan üçün Azərbaycanın yaratdığı sabit mühit mühüm əhəmiyyət daşıyır. Azərbaycanın təşəbbüsləri Gürcüstanı regionun iqtisadi sabitlik dayaqlarından birinə çevirir. Bununla da Bakı Cənubi Qafqazda üçtərəfli inteqrasiya modelinin əsas konturlarını formalaşdırır.

## Cənubi Qafqazın gələcəyi - sülh və əməkdaşlıq məkanı

Regionun bu günkü mənzərəsi aydın şəkildə göstərir ki, sülh, əməkdaşlıq və qarşılıqlı münasibətlər sisteminə yeni baxış Cənubi Qafqaz siyasətinin yeni normasıdır. Azərbaycan bölgədə sabitlik yaradan lider dövlət kimi çıxış edir və bu, uzunmüddətli inkişafın təminatıdır. Cənubi Qafqazın gələcəyi üçün üç əsas istiqamət müəyyənləşib:

- Siyasi sabitlik və diplomatik balans - münaqişəsiz qonşuluq modeli;

- İqtisadi inteqrasiya - vahid ticarət və logistika məkanının formalaşması;

- Humanitar əməkdaşlıq - xalqlar arasında etimad və qarşılıqlı anlayış mühiti.

Azərbaycanın təşəbbüsü ilə formalaşan bu reallıq Cənubi Qafqazı qarşıdurma bölgəsindən inkişaf məkanına çevirir. Bakı diplomatiyasının məzmunu “qalib tərəf” deyil, “tərəfdaş region” fəlsəfəsinə əsaslanır. Azərbaycanın rəhbərliyi ilə formalaşan yeni Cənubi Qafqaz modeli isə həm iqtisadi inteqrasiyanı, həm də siyasi sabitliyi təmin edən mühüm mərhələdir. Bu modelin mərkəzində “sülh naminə əməkdaşlıq” prinsipi dayanır. Bakı bölgədəki bütün dövlətlər üçün ortaq ev - Cənubi Qafqaz evi qurur. Bu evin sütunları sabitlik, bərabərlik və qarşılıqlı etimaddır. Ermənistan, Gürcüstan və Azərbaycan bu evin üç dayağıdır, Türkiyə isə onun təbii strateji tərəfdaşıdır. Azərbaycanın diplomatik uzaqgörənliyi və regional məsuliyyəti nəticəsində Cənubi Qafqaz artıq konfliktlər coğrafiyasından çıxaraq sülh, əməkdaşlıq və inkişafın yeni məkanı kimi tarixə daxil olur.

***Pərviz SADAYOĞLU***

# TARİXİ SƏRƏNCAM - bir əsr sonra yenidən Bakıda

## Birinci Türkoloji Qurultayın 100 iliyi qeyd olunacaq

## Prezident İlham Əliyevdən türk dünyasına növbəti töhfə



Türk dünyasını birləşdirən ən mühüm amillər sırasında heç şübhəsiz ortaq dil, mədəniyyət və dəyərlərimiz ön sıralarda gəlir. Bu, kökümüzə bağlılığı daha da dərinləşdirən, özünüdərki reallaşdıran, birliyimizi və həmrəyliyimizi təmin edən faktorlar həm də gələcəyimiz üçün əsaslı bir təməl formalaşdırır. Bu təməlin daha güclü və sarsılmaz olması, əsrlərin sınağından üzüağ çıxmış dil, mədəniyyət birliyimizin daha da irəliyə aparılması üçün real imkanlar mövcuddur. Artıq türk dünyası bir masa arxasındadır - bu, vacib bir şərtdir. Türk dövlətləri yeni nizamda vahid hədəflərə fokuslanıb.

Bu istiqamətdə Azərbaycan hər zaman aparıcı və təşəbbüskar rol oynayıb. İstər Türk birliyinin formalaşmasında, istər Türk Dövlətləri Təşkilatının vahid nizamda yaradılmasında, istərsə də türk həmrəyliyinin, harmoniyasının gücləndirilməsində Bakının rolu danılmazdır. Azərbaycan hər zaman bildirir ki, əsrlərlə yaşatdığımız bu dəyərlər həm də bizim sabahımızın təminatçısıdır. Azərbaycan dövləti hər zaman birgə keçmişimizə, tariximizə, dəyərlərimizə hörmətlə yanaşır, tarixi missiyanı həyata keçirir. Bu fakt növbəti dəfə TDT-nin Qəbələ Zirvə sammitində ortaya qoyuldu. Belə ki, Sammitdəki çıxışında Prezident İlham Əliyev bildirdi ki, ortaq tarixi və etnik köklərimiz, dillərimiz bizi bir ailə kimi birləşdirir: “Burada 1926-cı ildə Bakıda təşkil edilmiş birinci Türkoloji Qurultayın tarixi əhəmiyyətini vurğulamaq istərdim. Gələn il birinci Türkoloji Qurultayın keçirilməsinin 100 illik yubileyinin Türk Dövlətləri Təşkilatı çərçivəsində təntənəli şəkildə təşkil olunmasını təklif edirəm. Əminəm ki, Zirvə Görüşümüz qəbul edəcəyimiz qərarlarla Türk Dövlətləri Təşkilatının mövqeyini daha da gücləndirəcək, xalqlarımızın rifahına və təhlükəsizliyinə əlavə töhfə verəcəkdir”.

## Türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna tədbir

Bəli, həqiqətən də 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay türk xalqlarının elmi, mədəni və mənəvi birliyinin təməlini qoyub. Həmin qurultayın 100 illiyinin qeyd edilməsi ilə bağlı Prezident İlham Əliyevin səsləndirdiyi təklif, əslində, türk dünyasının ortaq kimliyinin yenidən bərpasına çağırışdır. Azərbaycan bu çağırışı XXI əsrin reallıqları fonunda gerçəkləşdirmək üçün həm ideoloji, həm elmi, həm də mədəni əsaslar yaradır. Türk dünyasının humanitar paytaxtı kimi Bakı bu gün dilin, ədəbiyyatın, incəsənətin və təhsil inteqrasiyasının yeni mərkəzinə çevrilib. Məhz bu mənəvi dayaqlar siyasi və iqtisadi əməkdaşlığa dərin mənalar qazandırır. Azərbaycan Prezidenti Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda bildirilir ki, 2026-cı ilin fevral ayında Bakı şəhərində Birinci Türkoloji Qurultayın təşkilinin 100 ili tamam olur. Birinci Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna əhəmiyyətli hadisələrdəndir. Beynəlxalq miqyaslı bu unikal elmi forumda türkologiyanın ən aktual məsələləri geniş və sistemli müzakirə obyektinə çevrilib, türk dünyasının dili, tarixi, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyətinin gələcəyi ilə bağlı vacib qərarlar qəbul edilib, latın qrafikası əsasında vahid ümumtürk əlifbasına keçilməsi xüsusi diqqət mərkəzində saxlanılıb.

## Vaxtilə irəli sürülən bir çox ideyalar müasir şəraitdə uğurla gerçəkləşdirilir...

Sərəncamda vurğulanır ki, Bakı şəhəri XX əsrin əvvəllərindən intellektual həyatın yüksək səviyyəsi ilə seçildiyi və dünya türkologiyasının nüfuzlu mərkəzlərindən biri kimi tanındığı üçün Birinci Türkoloji Qurultaya ev sahibliyi edib. Türk respublikaları arasında yeni əlifbanın ilk kütləvi tətbiqinə məhz Azərbaycanda başlanılması isə hələ XIX əsrdən etibarən burada mütərəqqi düşüncəli ziyalıların əlifba islahatı uğrunda apardıqları ardıcıl mübarizənin nəticəsi idi. Birinci Türkoloji Qurultayda səslənən başlıca fikir və müddəaların həyata keçməsinin qarşısı az sonra bolşevik rejiminin və sovet totalitar idarə üsulunun yaratdığı maneələrlə sərt formada alınmış, qurultay nümayəndələrinin böyük əksəriyyəti 1930-cu illər repressiyasına məruz qalıb, bununla da türkologiyanın inkişafına olduqca ağır zərbə vurulub. Yalnız ötən əsrin sonlarında əldə etdikləri milli müstəqillik türk xalqlarının mənəvi dirçəliş yollarını işıqlandırıb, mühüm problemlər sırasında latın qrafikalı ümumtürk əlifbasının tətbiqini bir daha aktuallaşdırıb. Sərəncamda o da bildirilir ki, Birinci Türkoloji Qurultayın vaxtilə irəli sürdüyü bir çox ideyalar müasir şəraitdə uğurla gerçəkləşdirilir. Türk dünyasının yenidən vahid ailə şəklində formalaşması istiqamətində diqqətələyiq nailiyyətlər qazanılıb. Türk ölkələri arasında qardaşlıq ruhu ilə müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi və qarşılıqlı mədəni əməkdaşlıq əlaqələrinin dərinləşdirilməsinə doğru qətiyyətlə atılan addımlar artıq davamlı xarakter daşımaqdadır. 2025-ci il oktyabrın 6-7-də Qəbələ şəhərində keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 12-ci Zirvə Görüşünün Bəyannaməsində Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsi çağırışının öz əksini tapması bunun daha bir təzahürüdür.

Prezident İlham Əliyevin Azərbaycanın və bütövlükdə türk dünyasının XX əsr elmi-mədəni həyatının parlaq səhifəsini təşkil etdiyini nəzərə alaraq, Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsinin təmin olunması məqsədilə imzaladığı Sərəncama əsasən Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə Birinci Türkoloji Qurultayın 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirməlidir.







## Birinci Türkoloji Qurultay: XX əsrin ən əlamətdar hadisələrindən biri

Xatırladaq ki, birinci Türkoloji Qurultay 1926-cı ilin 26 fevral-6 mart tarixlərində Bakı şəhərində SSRİ ərazisində yaşayan türk xalqlarının tarixi, ədəbiyyatı, dili, əlifbası, etnoqrafiyası və mədəniyyəti ilə bağlı yaxın gələcək üçün düşünülmüş bir sıra mühüm və əhəmiyyətli qərarların qəbul edildiyi toplantı kimi tarixə yazılıb. Qurultayda latın qrafikalı əlifbaya keçidin elmi-metodik prinsipləri ətraflı şəkildə işlənib hazırlanmışdı. Qəbul edilən qərara əsaslanaraq 1929-cu il yanvarın 1-dən Sovet hökuməti ərəb əlifbasının istifadəsinə qadağa qoydu. RSFSR tərkibində olan türk xalqları yeni türk əlifbasından istifadəyə başladılar.

Birinci Türkoloji Qurultay XX yüzillikdə türk xalqlarının, o cümlədən, Azərbaycan xalqının mədəni həyatında baş vermiş ən əlamətdar hadisələrdən biri kimi tarixə yazıldı - Qurultayın işində Sovet İttifaqı məkanında yaşayan türk xalqları ilə yanaşı xarici qonaqlar, ümumilikdə isə 131 nəfər nümayəndə - alimlər, dilçilər, tarixçilər, şairlər, yazıçılar və digər görkəmli mütəfəkkirlər iştirak edib. Türk xalqlarının mədəni inteqrasiyasında mühüm bir mərhələnin əsasını qoymuş bu möhtəşəm Qurultay ilk növbədə geniş vüsəti və böyük bir coğrafi məkanda yaşayan çoxsaylı türk xalqları üçün bir sıra taleyüklü məsələlərin qoyuluşu, işlənib hazırlanması və ardıcıl şəkildə gerçəkləşdirilməsi baxımından müstəsna əhəmiyyət daşıyırdı. Qurultayın iclaslarına Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri Səməd ağa Ağamalıoğlu sədrlik etmiş, qurultayın Rəyasət Heyətinə isə Səməd ağa Ağamalıoğlu ilə yanaşı, Azərbaycandan Ruhulla Axundov, Həbib Cəbiyev, tanınmış şərqşünas-tarixçi alim, akademik Vasili Bartold, akademik Sergey Oldenburq, Avropa alimlərinin nümayəndəsi, professor F.F.Mensel, RSFSR Xalq Maarif Nazirliyindən Naqovitsin, professor Bəkir Çobanzadə, professor Aleksandr Samoyloviç, Qazaxıstandan Əhməd Baytursunov, Yakutiyadan İsidor Baraxov, Şərqşünaslıq Assosiasiyasından İlya Borozdin və M. Pavloviç, Tatarıstandan Qəlimcan İbrahimov, Başqırdıstandan İdelquzin, Türkiyədən Mehmed Fuad Köprülü, Dağıstandan Cəlaləddin Qorxmazov, Özbəkistandan Rahim İnogomov, Qara-Qırğızıstandan Tunstanov, Türkmənistandan Berdiyev, Krımdan Osman Nuri Akçokraklı, Şimali Qafqazdan Əliyev Umar seçilmişdilər. Əli bəy Hüseynzadə, Banq, Mustafa Quliyev, akademik Nikolay Marr, Anatoli Lunaçarski və Tomsen qurultayın Rəyasət Heyətinə fəxri üzvü olmuşdular.

## Əsas hədəflər: yeddi problemin həlli ...

Birinci Bakı Türkoloji Qurultayında türk dillərinin aşağıdakı yeddi böyük problemi müzakirə obyekti oldu və müvafiq qərarlara imza atıldı:

- Əlifba məsələsi;
- İmla-orfoqrafiya problemi;
- Termin məsələsi;
- Tədris-metodika məsələsi;
- Qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və interferensiya problemləri;
- Türk dillərinin ədəbi dil problemləri, o cümlədən ortaq ədəbi dil məsələsi;
- Ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi problemləri.

Qurultay nümayəndələri tanınmış klassik, özbək şairi Əlişir Nəvainin 500 illik yubileyində də iştirak etdilər. Qurultayın qərarına görə II Türkoloji Qurultayın 1927-ci ildə Səmərqənd şəhərində keçirilməsi nəzərdə tutulsa da, reallaşmadı. Qurultayın qəbul etdiyi qərarlar sırasında ortaq əlifba, ortaq ədəbi dil, ortaq terminologiya kimi məsələlər xüsusilə mühüm yer tuturdu. Yeri gəlmişkən, bu istiqamətdə TDT-nin də, ayrıca Azərbaycanın da mühüm çağırışları və layihələri mövcuddur...

**P.İSMAYILOV**

# Neft Fondu aktivlərini 70 milyard dollara çatdırıb

Azərbaycanın milli suveren institutu olan Dövlət Neft Fondunun (DNF) aktivləri 2025-ci ilin əvvəlindən ötən 9 ay ərzində 16,9 faiz artaraq 70 milyard 161,7 milyon dollara yüksəlib. Fond bu müddətdə aktivlər portfelini təxminən 10 milyard dollar böyüdüb. DNF-nin yanvar-sentyabr aylarında 13 milyard manat, ümumi xərcləri isə 10, 9 milyard manat təşkil edib. Fond neft-qaz satışından 7 milyard 837 milyon manat gəlir əldə edib. İnvestisiya portfeli üzrə gəlirləri isə 5 milyard 235,7 milyon manat təşkil edib. Ümumilikdə, büdcədənkənar gəlirlər isə 15 milyard manatı ötüb. Neft Fondu 9 ay ərzində dövlət büdcəsinə 10 milyard 860 milyon manat vəsaiti transfert edib.

Dövlət Neft Fondunun gəlirlərində xüsusi yer tutan neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı mənfəət qlobal enerji bazarlarında davam edən gərginliklər və qiymət dəyişkənlikləri fonunda qənaətbəxş hesab edilə bilər. Belə ki, qurum mənfəət neftinin və qazın satışından 7 milyard 68,8 milyon manat, bonus ödənişləri və tranzit gəlirlərindən 765,3 milyon manat, akrhesabı ödənişlərdən 3,6 milyon manat əldə edib ki, bu da qlobal fraqmentasiyalar fonunda ümidverici göstəricilərdir. Yeri gəlmişkən, dövr ərzində DNF-nin gəlir portfelinə “Azəri-Çıraq-Günəşli” yatağından 6,1 milyard manat, “Şahdəniz” yatağından isə 697 milyon manat məbləğində vəsait daxil olub.

**Fond hərraclarda 4,3 milyard dollardan çox vəsait satıb**

Neft Fondu dünya bazarlarında xarici valyutaların, o cümlədən qlobal tədavül aləti olan dolların kəskin dəyişkənlikləri fonunda valyuta məzənnələrinin dəyişməsindən zərərlər etməyib. Belə ki, DNF-nin valyuta üzrə yaranan fərq ilə bağlı büdcədənkənar gəliri 15 milyard manat təşkil edib. Onu da qeyd edək ki, Neft Fondu 2025-ci ilin ötən aylarında daxili valyuta bazarında aktiv maliyyə təchizatçısı kimi çıxış edərək xarici valyutaya olan tələbi artıqlaması ilə yerinə yetirib. Fond tərəfindən 9 ayda Mərkəzi Bankın vasitəçiliyi ilə həyata keçirilən hərraclarda 4 milyard 350,3 milyon dollar məbləğində vəsait satılıb ki, bu da daxili valyuta bazarındakı sabitliyi möhkəmləndirib.

Neft Fondu dövlət büdcəsinə böyükməbləğli transfert öhdəliyini tam icra etməklə yanaşı, ölkəmizin bir sıra iqtisadi-sosial prioritetləri üzrə layihələrinə də dəstək verib. Belə ki, yanvar-




sentyabr aylarında “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın maliyyələşməsinə 8,2 milyon manat, “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı” nın maliyyələşməsinə 26,1 milyon manat vəsait yönəldib.

**Qlobal bazarlarda əldə edilən gəlirlər**

Qurumun aktivlərində müşahidə olunan artım əsasən, vəsaitlərin idarə edilməsindən əldə edilən gəlirlər və büdcədənkənar gəlirlər hesabına formalaıb. şmışdır. Belə ki, maliyyə bazarları baxımından, 3-cü rübdə müşahidə olunan nisbətən sakit iqtisadi-bazar mühiti dövlət istiqrazlarının gəlirlilik dərəcələrinin volatilliyinin əvvəlki rüblərlə müqayisədə azalmasına səbəb olsa da, Avrozona və Böyük Britaniyanın 10 illik dövlət istiqrazlarının gəlirlilik dərəcələrində artım, ABŞ-da isə azalma tendensiyasının müşahidə olunması şəraitində DNF borc öhdəliklərindən əhəmiyyətli həcmdə gəlirlər əldə edib. Bundan başqa, qlobal səhm bazarları üçüncü rübdə aktivlik nümayiş etdirərək əvvəlki rübdə müşahidə olunan artım tendensiyasını davam etdirib. Nəticədə qlobal səhm bloklarında, ələxsus da ABŞ bazarlarında baş verən yüksəliş nəticəsində, əsas indekslər yüksək gəlirlilik yaranıb və bu müsbət dinamika Neft Fondunun da səhm bazarlarından faydalanmasını təmin edib.

Qızıl bazarı hesabat dövründə ardıcıl olaraq tarixi maksimum səviyyələri yeniləyərək yüksək gəlirlilik nümayiş etdirib. Qlobal miqyasda davam edən qeyri-müəyyənliklər, mərkəzi banklar tərəfindən həyata keçirilən iri həcmli alışlar və digər mənbələrdən mövcud tələbat qızılın qiymətinin yüksəlməsinə səbəb olub. Nəticə etibarilə, bu amillər Dövlət Neft Fondunun qızıl altportfelinin performansını əhəmiyyətli dərəcədə yaxşılaşdıraraq büdcədənkənar gəlirlərin artımına töhfə verib.

**Təmkinli sərmayə siyasəti gəlirliliyi artırır**

Azərbaycanın milli suveren təsisatı qlobal iqtisadi mühitdə və investisiya bazarlarında baş verən proseslərə uyğun olaraq öz investisiya siyasətini daim təkmilləşdirir, risklərin aşağı olması şərtilə maksimum gəlirliliyin əldə edilməsinə imkan verən investisiya siyasəti həyata keçirir. DNF hazırda məcmu aktivlərinin əhəmiyyətli hissəsini uğurlu investisiya siyasəti çərçivəsində qlobal bazarlarda müxtəlif maliyyə alətlərinə, o cümlədən, səhm, qızıl, daşınmaz əmlak və infrastruktur kimi müxtəlif sahələrə yönəldir. Fondun 2024-cü ilin üçüncü rübünə olan dövrdə investisiya portfelinin 67 faizini ABŞ dolları təşkil edib. İnvestisiya portfelinin 20,3 faizini avro, 5,1 faizini funt sterlinq, 2,6 faizini Çin yuanı, 1,4 faizini Yaponiya yeni, 3,6 faizini isə digər valyutalar təşkil edib.

**“A2” reytinqi yüksək nüfuzu əks etdirir**

Dövlət Neft Fondu hazırda dünyanın ən nəhəng suveren fondları, kapital institutları ilə sıx əməkdaşlıq edir. Dünyanın alternativ investisiyalar sahəsində ən böyük idarəedici şirkətlərindən biri olan ABŞ-ın “Brookfield Asset Management” və “Brookfield” şirkətləri ilə ilə yaxın əməkdaşlığı münasibətləri investisiya nüfuzunun göstəricisidir. Habelə Amerikanın “Neuberger Berman” şirkəti ilə 2016-cı ildən etibarən səmərəli tərəfdaşlıq quran Dövlət Neft Fondunun müasir investisiya alətləri tətbiq etməsində “Neuberger Berman”ın təcrübəsi mühüm əhəmiyyət kəsb edir. Bütün bu amillər fondun investisiya reytinqinin yüksəlməsinə də təsir edir. Beynəlxalq kredit agentlikləri “Standard & Poor’s” tərəfindən verilmiş “A” və “Fitch” - “Moody’s” tərəfindən verilmiş “A2” kredit reytinqi də bunu təsdiqləyir.

Göründüyü kimi fond təkcə maliyyə nəticələrini yaxşılaşdırmaqla kifayətlənmir, eyni zamanda, Azərbaycanın qlobal iqtisadi mühitdə mövqeyini möhkəmləndirən layihələrə investisiya qoymaqla, davamlı inkişafa və gələcək nəsillərin mənafeyinə xidmət edən əsas maliyyə dayaqlarından biri kimi çıxış edir. Hazırda Dövlət Neft Fondu Azərbaycanın davamlı inkişafına və iqtisadi potensialının möhkəmləndirilməsinə dəyərli töhfələr verən mühüm təsisat kimi yeni çağırışlar əsasında maliyyə-investisiya uğurlarını davam etdirməkdədir.

**E.CƏFƏRLİ**

# Xəzərin dibi ilə yaradılan əməkdaşlıq körpüsü

**İntensiv siyasi dialoqa adekvat olaraq iqtisadi əlaqələrin genişlənməsi, yeni nəqliyyat bağlantıları, icra olunan layihələr Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında münasibətləri getdikcə dərinləşdirir və ölkələrimiz bir-birinə daha sıx bağlanır. Bu kontekstdə Azərbaycan - Qazaxıstan əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi xüsusi diqqət çəkir. İki dost ölkə arasında qarşılıqlı maraqlara əsaslanan münasibətlər çoxvektorludur və bura yeni perspektivli istiqamətlər də əlavə olunur.**

## Azərbaycan-Mərkəzi Asiya "yaşıl enerji" gündəliyi

Azərbaycanla Qazaxıstan və bütövlükdə Mərkəzi Asiya regionu dövlətləri arasında böyük perspektiv vəd edən yeni əməkdaşlıq istiqamətlərindən biri "yaşıl enerji" seqmentidir. İndiyədək Azərbaycan və Qazaxıstan enerji əməkdaşlığı üzrə yaxşı nəticələr qazanıblar. Qeyd edək ki, 2023-cü ildən indiyədək Bakı-Tbilisi-Ceyhan (BTC) vasitəsilə 3 milyon tondan çox Qazaxıstan neftinin nəqli reallaşdırılıb. Keçən il bu strateji xammalın Azərbaycan ərazisindən tranziti təxminən 1,5 milyon ton təşkil edib. Yaxın vaxtlarda bu həcmi artırmaq, həm də xeyli artırmaq nəzərdə tutulur. Həmçinin SOCAR və "KazMunayGaz" arasında birgə layihələr üzrə əməkdaşlıq imkanları da müzakirə olunur.

İki dost ölkə qazanılan təcrübəyə, qarşılıqlı etimad mühitinə istinad etməklə "yaşıl enerji" seqmenti üzrə də əməkdaşlığa başlayıb. Bu günlərdə Qazaxıstanın energetika naziri Erlan Akkenjenov ölkələrimiz arasında Xəzər dənizinin dibi ilə "yaşıl enerji" ka-



belinin çəkilməsi layihəsinin hazırlanması prosesindən danışıb. Onun sözlərinə görə, Azərbaycanla əməkdaşlığın əsas mövzusu enerji sahəsidir. Bu, neftin Bakı-Tbilisi-Ceyhan marşrutu vasitəsilə əlavə istiqamət üzrə nəqli və Xəzər dənizinin dibi ilə "yaşıl enerji" kabelinin çəkilməsini əhatə edir."Hazırda artıq birgə müəssisə yaradılıb, texniki-iqtisadi əsaslandırma mərhələsi maliyyələşdirilib", - deyə nazir qeyd edib. Qazaxıstanlı nazir bildirib ki, layihənin maliyyələşdirilməsində iki bank, o cümlədən Asiya İnkişaf Bankı iştirak edir. "Hazırda texniki-iqtisadi əsaslandırmanın formalaşdırılması prosesi gedir. Bu mərhələ başa çatdıqdan sonra layihənin dəqiq dəyəri müəyyən ediləcək və qərar qəbul olunacaq", - deyə Akkenjenov əlavə edib.

Burada söhbət ötən ilin noyabrında Bakıda böyük uğurla baş tutan COP29 çərçivəsində Azərbaycanın, Özbəkistanın və Qazaxıstanın dövlət başçıları tərəfindən imzalanmış "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in, həmçinin müvafiq layihə üzrə üç ölkə və Səudiyyə Ərəbistanı Krallığının Energetika nazirlikləri arasında təsdiqlənən İcra Proqramının həyata keçirilməsi istiqamətində görülən işlərdən gedir. Xatırladaq ki, bir qədər bundan əvvəl Azərbaycan Energetika Nazirliyində "Azərbaycan-Mərkəzi Asiya Yaşıl Enerji Dəhlizi" layihəsinin icrası məqsədilə "Azərenerji" ASC, "Qazaxıstan Elektrik Şəbəkəsi Əməliyyat Şirkəti" və "Özbəkistanın Milli Elektrik Şəbəkələri" ASC arasında "Yaşıl Dəhliz Birliyi" MMC-nin yaradılması və nizamnaməsinin təsdiq edilməsi ilə bağlı tədbir keçirilib. Tədbirdə "Yaşıl Dəhliz Birliyi" MMC-nin yaradılması ilə bağlı sənəd imzalanıb. Sənədi "Azərenerji" ASC-nin vitse-prezidenti Ziyəddin Quliyev, "Qazaxıstan Elektrik Şəbəkəsi



Əməliyyat Şirkəti"nin şöbə müdiri Saltanat Şunayeva və "Özbəkistan Milli Elektrik Şəbəkəsi"nin İdarə Heyəti sədrinin müavini Feruz Kurbonov tərəfindən imzalanıb. "Yaşıl Dəhliz Birliyi" MMC-nin rəhbəri (baş direktor) vəzifəsinə Fərhad Məmmədovun təyin edilməsi razılaşdırılıb.

COP29 çərçivəsində imzalanan Sazişin əsas məqsədi Paris İqlim Sazişində nəzərdə tutulmuş istixana qazı emissiyalarının azaldılması hədəflərinə uyğun olaraq "yaşıl enerji"nin inkişafını təşviq etməkdir. Bu çərçivədə tərəflər, bərpaolunan enerji mənbələrinin istehsalı, ötürülməsi və ticarəti sahəsində qarşılıqlı əməkdaşlıq edəcək, yaşıl hidrogen və yaşıl ammonyak texnologiyalarının tətbiqini dəstəkləyəcək. Həmçinin layihə Mərkəzi Asiya və Cənubi Qafqaz regionlarının enerji sistemlərinin inteqrasiyasını gücləndirərək, bərpaolunan enerjinin Avropaya və digər bazarlara ixracını asanlaşdıracaq. Bu əməkdaşlıq, həmçinin Orta Dəhlizin inkişafına və Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə inteqrasiyasının dərinləşməsinə töhfə verəcək. Layihə Mərkəzi Asiya və Qafqaz regionlarının əməkdaşlığında yeni imkanlar açır və Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsi təkcə üç ölkə arasında deyil, həm də daha geniş miqyasda əməkdaşlığa xidmət edəcək. Təsadüfi deyil ki, Avropa İttifaqı "Xəzər-Qara dəniz-Avropa" enerji dəhlizinin yaranmasına 1 milyard avro həcmində kredit ayıracağını bəyan edib.

## Dost ölkələrin geniş potensialı və hədəfləri

Azərbaycanın uğurla ev sahibliyi etdiyi COP29 iqlim konfransında dövlət başçıları tərəfindən müvafiq sənəd imzalanarkən müasir çağırışlar və üç dost ölkənin alternativ enerji sahəsində geniş potensialı və iddialı hədəfləri əsas götürülüb. Məlumdur ki, hazırda qlobal enerji bazarında sürətli transformasiyalar gedir. Bir tərəfdən, ölkələr üçün enerji təhlükəsizliyinin önəmi artır. Digər tərəfdən isə qlobal istiləşmə, ekoloji fəlakətlərin artması nəzərə alınmaqla enerji istehsalında bərpaolunan enerji mənbələrindən daha geniş istifadə olunması prioritet kimi qəbul edilir. Beləliklə, "yaşıl enerji"yə keçid dünya üçün yeni bir vazkeçilməz çağırışdır.

Azərbaycan yeni qlobal çağırışa ilk qoşulan ölkələr sırasında yer alır. Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixində imzaladığı müvafiq Sərəncamla "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədi təsdiqlənib. Sənədə əsasən, növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş prioritet müəyyənləşdirilib ki, onlardan da biri təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi prioritetidir. Bəhs olunan bu prioritet üzrə yeni strateji dövrdə yüksək keyfiyyətli ekoloji mühitin və "yaşıl enerji" məkanının yaradılması kimi iki məqsədin effektiv reallaşdırılmasına nail olunması nəzərdə tutulub. Bütövlükdə, respublikamızda 2030-cu ilə qədər elektrik enerjisinin istehsal gücündə bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılması hədəflənib. Müəyyənləşdirilən zaman çərçivəsində bu hədəfə çatılması tam realdır. Xəzərin Abşeron sahillərində, işğaldan azad olunmuş ərazilərimizdə, Naxçıvanda bərpaolunan mənbələrdən enerji istehsalı üçün geniş imkanlar mövcuddur. Hesablamalara görə, ölkənin bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 QVt, o



cümlədən külək enerjisi üzrə 3 min MVt, günəş enerjisi üzrə 23 min MVt təşkil edir. 2032-ci ilədək quruda və dənizdə yaradılacaq 6 QVt-dan çox gücün 4 QVt-nın "Xəzər-Qara dəniz-Avropa" yaşıl enerji dəhlizi ilə mərhələli şəkildə ixracına başlanması planlaşdırılır ki, bu da təxminən 4,5 milyon ton emissiyanın azaldılmasına bərabərdir.

Ölkəmizdə elektrik enerjisi istehsalının ilbəil artması məmnunluq doğurur. 2025-ci ilin 9 ayı üzrə operativ məlumatlara əsasən, respublikada elektrik enerjisinin istehsalı 12,1 milyon kVt·st artaraq 21 798,7 mln. kVt·st olub. Bu dövrdə İES-lərdə 18 659,6 milyon kVt·st, SES-lərdə 2 414,3 milyon kVt·st, digər mənbələr üzrə isə 724,8 milyon kVt·st, o cümlədən külək elektrik stansiyalarında 30,5 milyon kVt·st, Günəş elektrik stansiyalarında 511 milyon kVt·st, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 183,3 milyon kVt·st elektrik enerjisi istehsal edilib.

Xəzərin digər sahillərində yerləşən dost Qazaxıstan və Özbəkistan da böyük həcmlərdə bərpaolunan enerji potensialına malikdirlər. Qazaxıstan 2025-ci ildə ümumi elektrik enerjisi istehsalında bərpaolunan enerjinin payını 6 faizə, 2030-cu ilə qədər 10 faizə çatdırmağı planlaşdırır, 2050-ci ilə qədər isə "yaşıl enerji" ümumi enerji istehlakının azı yarısını təşkil etməlidir. Qazaxıstanın külək enerjisi potensialı ildə 1 trilyon 820 milyard kilovat/saatdan çoxdur, Günəş enerjisi potensialı isə 1 trilyon kilovat/saatdır.

Özbəkistan hökuməti 2030-cu ilə qədər ümumi elektrik enerjisi istehsalında "yaşıl enerji"nin payını 25 faizə çatdırmağı hədəfləyir. Ölkədə külək enerjisinin potensialı 520 QVt, Günəş enerjisinin potensialı isə 2 trilyon 058 milyard kVt təşkil edir ki, bunlar da kifayət qədər böyük həcmlərdir.

*Mübariz ABDULLAYEV*

# 9 ayda 2,5 milyard manat

## Azad olunmuş ərazilərdə bərpa-quruculuq layihələrinin miqyası genişlənir

Maliyyə Nazirliyi (MN) 2025-ci ilin yanvar-sentyabr aylarında işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpasına dövlət büdcəsindən ayrılmış vəsaitin həcmini və büdcə xərclərinin strukturunu açıqlayıb. Ötən 9 ayda Qarabağ və Şərqi Zəngəzurda sürətli bərpa-quruculuq işlərində 2 milyard 567,5 milyon manat xərclənib. Həmin vəsaitin 2 milyard 234,8 milyon manatı infrastruktur layihələrinə, 291,7 milyon manatı sosial layihələrə, 41 milyon manatı isə ərazilərin minalardan təmizlənməsinə yönəldilib.







Xərc portfelinin tərkibində infrastruktur layihələri üzrə avtomobil yollarının layihələndirilməsi və tikintisinə 1 milyard 525,1 milyon manat, yeni yaşayış komplekslərinin tikintisinə 461,1 milyon manat, dəmir yolu xətlərinin tikintisinə 107,3 milyon manat, elektrik təchizatı işlərinə 48 milyon manat, su xətləri, kollektorlar və qurğularına 44,3 milyon manat, sənaye parkları və infrastruktura 27,7 milyon manat, geoloji kəşfiyyat işlərinə 7,1 milyon manat, Şuşa, Xankəndi və Laçında kanat yolunun tikintisinə 6,6 milyon manat, digər zəruri işlərə 7,6 milyon manat xərclənib.

**Bölgədə nəhəng yol-nəqliyyat layihələri icra olunur**

Ümumilikdə, azad ərazilərdə bərpa və quruculuq işlərinə 2021-2024-cü illərdə 17,6 milyard manat vəsait xərclənib. 2025-ci il üzrə proqnozlaşdırılmış 4 milyard manat vəsaiti də nəzərə aldıqda cəmi beşillik xərclərin məbləği 22 milyard manata yaxınlaşmış olur. Həmin vəsaitlər hesabına son 5 ildə azad ərazilərdə minaların təmizlənməsi, müasir infrastrukturların yaradılması, o cümlədən elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri strukturların və mənəvi-tarixi abidələrin bərpası, şəhər, qəsəbə kəndlərin salınması və digər zəruri işlər görülüb. Yol infrastrukturunun bərpası məqsədilə uzunluğu 3382,6 km təşkil edən 44 avtomobil yolunun 1076,1 km respublika əhəmiyyətli, 2306 km yerli əhəmiyyətli layihələndirilməsi və tikintisi işləri davam etdirilib. Ümumi uzunluğu 315,9 km təşkil edən 7 avtomobil yolunun tam, 1 layihənin tikintisi qismən yekunlaşdırılıb. Onların sırasında 101 km olan "Zəfər Yolu", 28,5 km uzunluğunda Tərtər-Suqovuşan-Talış avtomobil yolu, 22 km-lik Laçın şəhərinə daxil olmadan yeni alternativ avtomobil yolu, 44,5 km-lik Bərdə-Ağdam avtomobil yolu, 61,4 km-lik Hacıqabul-Bəhramtəpə-Mincivan-Ermənistan dövlət sərhədi avtomobil yolu kimi nəhəng layihələri qeyd etmək olar. Habelə tikintisi 2025-2026-cı illərdə başa çatdırılması nəzərdə tutulan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd- İranla dövlət sərhədi yolu, Əhmədbəyli-Füzuli-Şuşa, Xudafərin-Qubadlı-Laçın, Toğana-Kəlbəcər-İstisu və digər iri maliyyə tutumlu yollara milyardlarla manat xərc tələb olunur.

İşğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı yenidənqurma işləri çərçivəsində dəmir yolu infrastrukturu da bərpa edilir. Zəngəzur dəhlizinin ən nəhəng qovşaqlarından biri olan Horadiz-Ağbənd dəmir yolu xəttinin təxminən 85 faizi tamamlanıb. Bu, yanyollarla birlikdə 140,6 km olan bu nəhəng polad magistral 8 strateji stansiyanı özündə birləşdirəcək.

Bölgədə ən nəhəng hava nəqliyyatı infrastrukturları yaradılıb, 2021-ci ildə Füzuli, 2022-ci ildə Zəngilan və 2025-ci il 1 may ayında Laçın Beynəlxalq Hava limanları istifadəyə verilib.

**Sənaye parkları iqtisadiyyata reinteqrasiyanın körpüsünə çevrilir**

Azad edilmiş ərazilərin zəngin iqtisadi resursları, xammal ehtiyatları, münbit aqrar fondu və mineral ehtiyatları ölkə iqtisadiyyatına inteqrasiyaya keçid üçün güclü təməllər yaratmaqdadır. Bölgə böyük sənaye və aqrar potensialı ilə seçilir və 3 ildir ki, bu potensialın hərəkətə gətirilməsi istiqamətində davamlı səylər göstərilir. Müasir sənaye və aqrar komplekslərinin yaradılması genişlənir, Cəbrayılda fəaliyyətə başlayan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında ilk xarici investorlar qeydə alınıb və müəssisədə çalışan rezidentlər istehsal zəncirləri qurub. Həmçinin, Ağdam Sənaye Parkında bir neçə istehsal sahəsi fəaliyyət göstərməklə regionun sənaye və iqtisadi güc mərkəzinə çevrilməkdədir.

Türkiyə və Azərbaycanın birgə sərmayə platforması olan "Dost Aqropark" layihəsi artıq öz müsbət nəticələrini verməkdədir. Dövlət bu ərazidə çalışan fermerlərə və kiçik, fərdi sahibkarlara, vətəndaşlara həm dəstək göstərir, subsidiya verir, həm də vergi və sosial güzəştlərlə əhatə edir. Bu da öz növbəsində gələcəkdə ölkəmizin kənd təsərrüfatı məhsullarının xarici idxal asılılığından azad olmasına müsbət təsirini göstərəcəkdir. "Laçın Aqro-Sənaye Parkı"ndakı "Pirshaghi" ayaqqabı fabriki, "Latifa" tikiş fabriki və digər müəssisələr regionun iqtisadi inkişafına töhfə verir, yeni iş yerlərinin yaradılmasını təmin edir. Eləcə də digər müəssisələr bölgənin ölkə iqtisadiyyatına reinteqrasiyanı dərinləşdirməklə Azərbaycanın gələcək yüksək iqtisadi inkişafına mühüm töhfə verəcək.

**Sahibkarların sayı 100 mini, yeni iş yerlərinin sayı 3 mini ötüb**

Azad ərazilərdə iqtisadi fəallıq da son 2 ildə canlanma ilə müşahidə olunmaqdadır. Dövlətin təmin etdiyi sağlam investisiya mühiti, təbliq olunan vergi-gömrük-sosiala güzəştlər, habelə sahibkarlara yaradılan əlverişli şərait və asan kredit şərtləri bölgədə sahibkarlıq subyektlərinin sayının artmasına səbəb olmaqdadır. 2025-ci ilin yanvar-sentyabr aylarında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 98.144-ü fərdi sahibkar olmaqla, ümumilikdə 103.545 sahibkarlıq subyekti qeydə alınıb. Belə ki, Qarabağ iqtisadi rayonunda mikrosahibkarlıq subyektlərinin sayı 4.077, kiçik sahibkarlıq subyektlərinin sayı 240, orta sahibkarlıq subyektlərinin sayı 90, iri sahibkarlıq subyektlərinin sayı 16 olub. Bu bölgədə 91.009 fərdi sahibkar fəaliyyət göstərib ki, onlardan 73.320 nəfəri kişi, 17.689 nəfəri qadın sahibkardır. Şərqi Zəngəzur iqtisadi rayonunda isə 947 mikro, 57 kiçik, 21 orta, 3 iri sahibkarlıq subyekti fəaliyyət göstərir. Həmin iqtisadi rayon üzrə fərdi sahibkarların sayı 7.135 nəfər təşkil edib ki, onlardan 5.427 nəfəri kişi, 1.708 nəfəri qadın sahibkarlardır.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2024-2026-cı illərdə əhalinin məşğulluq imkanlarının artırılmasına dair Tədbirlər Planı"nın icrası ilə əlaqədar əhalinin qayıdış ardıcıllığı nəzərə alınmaqla məşğulluq imkanlarının qiymətləndirilməsi və vakansiyalar üzrə işin aparılması, peşə təhsilinin və hazırlığının təşkili, ictimai işlərə və özünüməşğulluq proqramına cəlb edilməsi və digər bu kimi aktiv proqramların dəstəklənməsi istiqamətində görülən işlər sayəsində də əhəmiyyətli nəticələr əldə olunub. 2025-ci ilin ötən dövrünə qədər azad edilmiş rayonlarda 3 mindən çox yeni iş yeri yaradılıb.

**Məskunlaşmış əhalinin sayı 50 min nəfərdən çoxdur**

Qarabağ və Şərqi Zəngəzurun ümumi planlaşdırılması 13,6 min kvadratkilometr ərazini əhatə etməklə 1,1 milyon nəfərdən çox insanın doğma şəhər və kəndlərində məskunlaşmasını nəzərdə tutur. Məskunlaşma strategiyasına əsasən, əhalisi 300 min nəfərdən çox olan 8 şəhər və 90 kəndin baş planları artıq təsdiqlənib. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatına əsasən, 2025-ci il avqustun 1-nə qədər azad edilmiş ərazilərdə inşa edilmiş yaşayış məntəqələrinə 17204 nəfərdən ibarət 4325 ailənin qayıdışı təmin olunub. Ərazilərdə bərpa-quruculuq işləri və digər peşə fəaliyyəti ilə bağlı müvəqqəti yaşayan şəxslərin və onların ailə üzvlərinin sayı isə 35385 nəfər təşkil edib. Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində təhsil alan 1150 nəfər tələbə də nəzərə alınmaqla işğaldan azad edilmiş ərazilərdə məskunlaşmış əhalinin ümumi sayı 53 min 739 nəfərə bərabərdir.

*Elbrus*



# Cavid irsi- əbədiyyət işığı!

## Böyük ədibin anadan olmasından 143 il ötür




**Bu gün ədəbiyyatımızın parlaq siması, şair və dramaturq Hüseyn Cavidin anadan olmasından 143 il ötür. O, təkcə Azərbaycan ədəbiyyatının deyil, bütün türk dünyasının qəlbinə həkk olmuş nadir şəxsiyyətlərdəndir. 1882-ci il oktyabrın 24-də anadan olan H.Cavid türk düşüncə dünyasında silinməz izlər qoyan bir şəxsiyyətdir. Onun əsərlərində insanın daxili aləmi, azadlıq və ədalət uğrunda mübarizə, cəmiyyətin və zamanın sınaqlarından keçən insanın taleyi kimi mövzular diqqət mərkəzindədir. Cavid irsi bu gün də dərin mənalarla doludur. Onun həyatına və yaradıcılığına dair tədqiqatlar yalnız ədəbiyyatın və fəlsəfənin inkişafını deyil, həm də bir xalqın öz kimliyini anlamağa imkan verir. Cavidin adı yalnız Azərbaycan ədəbiyyatında deyil, bütün Türk dünyasında hər zaman böyük bir hörmətlə anılacaq!**

## Bəni öldürsələr də, bən yaşarım

Hüseyn Cavid son dərəcə dərin məzmunlu yaradıcılığı ilə çoxəsrlik Azərbaycan ədəbiyyatı xəzinəsinə tarixi-mədəni dəyərlər bəxş etmiş qüdrətli söz sənətkarıdır. O, Şərqin zəngin fəlsəfi-poetik irsi zəminində yüksələrək və dünya romantizm ənənələrindən uğurla bəhrələnərək, Azərbaycan xalqının ədəbi-bədii fikir salnaməsinə parlaq səhifələr yazıb. Mütəfəkkir sənətkarın neçə-neçə oxucu və tamaşaçı nəslinin estetik zövqünü müəyyənləşdirən əsərləri bu gün də öz təsir gücünü qorumaqdadır. Böyük dramaturq "Şeyx Sənan" faciəsində yaratdığı dramatik münaqişə vasitəsilə insanın həqiqət axtarışında olaraq, onun hisslərinin aliliyini yüksəltmək səylərı ilə ucala biləcəyinin mümkünlüyünü isbat edib. Hüseyn Cavid də məhz belə ali dəyərlərin axtarışında olaraq, əbdiliyini qazanıb. Əsərdə qəhrəmanı Sənanın dilindən deyilmiş aşağıdakı misralarda sanki dramaturqun həyatı nəzmə çəkib:



Bəni öldürsələr də, bən yaşarım,
Tərk edib xəlqi xaliqə qoşarım.

1937-ci il Hüseyn Cavidin həyatının dönüş nöqtəsi oldu - həmin il Sovet İttifaqında Stalin rejiminin ağır repressiyalarının zirvəyə çatdığı dövrdə Hüseyn Cavid həbs edildi. Onun həbsi həm də ədəbiyyata və düşüncə dünyasına böyük zərbə vurdu. Hüseyn Cavid sosializmin ideallarına uyğun olmayan, öz zamanının normativ düşüncəsindən fərqli bir dünyagörüşü ilə tanınırdı. Bu səbəbdən də həmin zamanlarda onun əsərləri və həyatı Sovet hakimiyyəti tərəfindən "təhlükə" kimi qiymətləndirilirdi. "Xalq düşməni" adı ilə ittiham edilərək həbs olunması böyük ədibin taleyində ağır nəticələrə yol açdı. Sürgün olunduğu soyuq Sibirdə, Vətəndən uzaqda əbədiyyətə qovuşdu.

## "Tarix hər şeyi öz yerinə qoydu"



Xalqımızın bir çox klassik sənətkarı kimi, Hüseyn Cavid irsinin təbliğində Ulu Öndər Heydər Əliyevin rolu böyükdür. Ümummilli Lider böyük Cavidin istər cismən, istərsə də mənən vətəninə və xalqına qaytarılmasında müstəsna rol oynadı. Məhz Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Hüseyn Cavidin nəşi 1982-ci ildə Uzaq Sibirdən vətəninə gətirildi. Naxçıvanda məzarı üzərində möhtəşəm məqbərənin ucaldılması milli ruhun dirçəlişi və azərbaycançılıq məfkurəsinin təntənəsi baxımından müstəsna əhəmiyyətə malik misilsiz bir hadisəyə çevrildi. Ulu Öndər deyirdi: "Tarix hər şeyi öz yerinə qoydu. Hüseyn Cavidin cənazəsi də Sibirdən öz vətəninə gətirildi, onun adı da yüksəldi".

Ümummilli Liderin təşəbbüsü ilə Hüseyn Cavidin cənazəsinin qalıqlarının Azərbaycana - şairin doğma yurdu Naxçıvana gətirilməsi Sovet məkanında yaşadığımız illərdə həqiqətən də görünməmiş böyük hadisə idi. Milli mədəniyyətimizin hərtərəfli inkişafına, yüksəlişinə daim təkan verən Heydər Əliyev 1981-ci ildə Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında qərar qəbul etmişdi. Bu qərardan sonra - 1982-ci il oktyabrın 3-də Naxçıvana səfəri zamanı Cavidin cənazəsinin qalıqlarının uzaq Sibirdən tapılıb gətirilməsi prosesinə başlanılmışdı.

Cavidin cənazəsinin Naxçıvana gətirilməsi həm də xalqımızın öz tarixini, mədəniyyətini və kimliyini heç vaxt unutmayacağına dair əminlik idi. Xalq özünün tarixini, mədəniyyətini, kimliyini heç vaxt unutmamışdı, hər zaman bu dəyərləri yaşatmağa çalışmışdı. Cavidin qalıqları yalnız bir şəxsiyyətin deyil, bütövlükdə xalqın mədəni davamlılığının rəmzi idi...

*Yeganə BAYRAMOVA*

# 193 ölkə bir çətir altında

## 24 oktyabr - BMT günüdür

Təqvimdə elə günlər var ki, bütün dünya üçün önəmlidir. 24 oktyabr məhz belə gündür. Tarixin bu günündə - 1945-ci il oktyabr ayının 24-də Birləşmiş Millətlər Təşkilatı (BMT) təsis edilib. Bu həmin dövr idi ki, ayrı-ayrı ölkələrdə milyonlarla insanın həyatına son qoyan, humanitar, ekoloji fəlakətlərə yol açan İkinci Dünya müharibəsi təzəcə başa çatmışdı. Dünya anlayırdı ki, bəşəriyyətin nicatı həmrəylikdə, münaqişələrin, yaranan çağırışların həllinin birlikdə tapılmasında və məsuliyyətin bölüşdürülməsindədir. Beləliklə, qeyd olunan tarixdə dünyanın ən güclü 50 dövləti tərəfindən bir sıra hallarda "Ümumdünya Hökuməti" də adlandırılan BMT yaradılıb.





**Sülh, inkişaf və insan haqları prinsipləri...**

BMT-nin fəaliyyəti 3 sütun üzərində qurulub: Sülh və təhlükəsizlik, inkişaf və insan hüquqları. Hazırda dünyanın 193 ölkəsi, 500 asılı ərazi, Antarktida materiki, Qərbi Səhra, Dünya okeanı, bir sözlə Yer kürəsinin 80 faiz ərazisi BMT-nin mandat sisteminə daxildir.

BMT-nin məqsədlərinə beynəlxalq sülh və təhlükəsizliyin qorunması, ölkələr arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi, iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həlli istiqamətində beynəlxalq əməkdaşlığın həyata keçirilməsi və insan hüquqları və əsas azadlıqlara hörmətin təşviq edilməsi daxildir.

**Azərbaycanın BMT-də layiqli təmsilçiliyi**

Azərbaycan 18 oktyabr 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən az sonra - 1992-ci ilin 2 mart tarixində BMT-nin üzvlüyünə qəbul edilib. BMT üzvlüyü Azərbaycana bərabərhüquqlu üzv kimi beynəlxalq ictimaiyyətə qovuşmaq və təşkilatın Nizamnaməsində əks olunmuş mexanizmlərdən istifadə edərək, öz təhlükəsizliyi və rifahını təmin etmək, eləcə də beynəlxalq sülh və inkişafa töhfə vermək üçün əməkdaşlıq etmək imkanını açıb.

Respublikamızla BMT arasında real məzmunlu əməkdaşlıq isə 1994-cü ildən başlayıb. Həmin ilin sentyabr ayında Prezident Heydər Əliyevin Baş Assambleyanın 49-cu sessiyasında iştirakı ilə Azərbaycan Respublikası ilə BMT arasında geniş əhatə dairəsinə malik tərəfdaşlığın əsası qoyulub. Ötən dövrdə respublikamız təşkilatda sadəcə, üzv dövlət kimi təmsil olunmayıb, eyni zamanda, bir çox qərarların qəbul və icra olunmasında mühüm rol oynayıb Bu kontekstdə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına (TŞ) qeyri-daimi üzv seçilməsini və iki il ərzində uğurlu fəaliyyətini qeyd etmək yerinə düşər. Şübhəsiz, 2011-ci il oktyabr ayının 24-də BMT Baş Məclisinin plenar iclasında gizli səsvermənin nəticələrinə əsasən, Azərbaycan 2012-2013-cü illərdə Şərqi Avropa bölgəsinin Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında təmsil edəcək qeyri-daimi üzv seçilməsi və quruma 2012-ci ilin may və 2013-cü ilin oktyabr aylarında Sədrlik etməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət kursunun məntiqi nəticəsi idi. Azərbaycan BMT TŞ-yə sədrlik müddətini uğurla həyata keçirdi.

**Ölkəmizin qlobal həmrəylik təşəbbüsləri**

2019-cu ilin sonlarından başlayan yeni növ koronavirus pandemiyası çox qısa müddət ərzində dünyanın 200-dək ölkəsinə yayıldı və çox ciddi çağırışlar yaratdı. Xatırlatmaq yerinə düşər ki, pandemiya dönəmində kritik vəziyyətlə üzləşən təxminən 150 ölkə beynəlxalq təşkilatlardan dəstək istəmək məcburiyyətində qalmışdı. Belə bir şəraitdə Azərbaycan qlobal təhdidə qarşı beynəlxalq həmrəyliyin gücləndirilməsi təşəbbüsünü irəli sürdü və bu təşəbbüs BMT səviyyəsində dəstəkləndi. Belə ki, Prezident İlham Əliyevin təklifi əsasında 3-4 dekabr 2020-ci il tarixlərində BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində COVID-19-a qarşı mübarizə mövzusuna həsr olunan 31-ci xüsusi sessiyası çağırıldı. Sessiyanın yüksək səviyyəli seqmentində 70-dən çoxu dövlət və hökumət başçıları, 48-i isə nazirlər səviyyəsində olmaqla, ümumilikdə, 147 üzv dövlət çıxış etdi.

23 mart 2021-ci il tarixində BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə qəbul edilib. Bundan başqa, Azərbaycan qlobal pandemiyanın fəsadlarına qarşı mübarizənin gücləndirilməsi məqsədilə Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) və ayrı-ayrı ölkələrə böyük həcmdə maliyyə dəstəyi göstərib ki, bu da ölkəmizin gücünü və məsuliyyətini, beynəlxalq həmrəyliyə verdiyi önəmi təcəssüm etdirir.

**BMT səviyyəsində ölkəmizin ərazi bütövlüyünə və sülhyaratma prosesinə dəstək**

Sülh və təhlükəsizliyi özünün təməl prinsiplərindən biri kimi bəyan edən BMT müstəqilliyinin ilk illərində işğala məruz qalan Azərbaycanın ərazi bütövlüyünə davamlı dəstək verib. O cümlədən BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə 822, 853, 874, 884 saylı qətnamələr qəbul edilib. Həmin qətnamələrdə Azərbaycanın ərazi bütövlüyü dəstəklənib və işğalçı qüvvələrin respublikamızın ərazisindən çıxarılması tələb olunub.

Təəssüf ki, bu qətnamələrin tələbləri Ermənistanın məsuliyyətsizliyi ucbatından təxminən üç onillik ərzində yerinə yetirilməyib. Yalnız 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında qazanılan qələbələr sayəsində Azərbaycan öz gücünə ərazi bütövlüyünü və suverenliyini təmin etməyə nail oldu.

Yeri gəlmişkən, postmüharibə dövründə Cənubi Qafqazda qalib Azərbaycanın təşəbbüsü ilə başlayan sülhyaratma prosesi BMT səviyyəsində də təqdir olunur. Azərbaycanla Ermənistan arasında tənzimləmə prosesinin ikitərəfli formatda irəli aparılması, eləcə də cari il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə əldə olunan razılaşmalar, yekun sülh sazişinin paraflanması BMT-nin Baş katibi tərəfindən alqışlanıb.

**BMT-də islahatlar qaçılmazdır**

Etiraf etmək lazımdır ki, bu gün BMT-də yeniliklərin edilməsi zəruri şərtə çevrilib - islahatların aparılması vacibdir. BMT-nin yarandığı dövrlə müasir dünyanın mənzərəsi eyni deyil. Tez-tez dəyişən çağırışlar dönəmində yaşayırıq. Ancaq müşahidə edilən odur ki, BMT bir sıra hallarda qlobal proseslərin önündə gedə, onlara istiqamət verə bilmir. Bundan itirən isə bütün dünyadır.

Azərbaycan da BMT-də islahatların aparılmasının tərəfdarıdır. Elə bir mexanizm yaradılmalıdır ki, qurumun qəbul etdiyi sənədlərin icrası mütləq qaydada təmin edilsin. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bildirib ki, BMT TŞ-nin tərkibi yenilənməlidir. Bu gün artıq körfəz ölkələrinin, İslam dünyasının, Qoşulmama Hərəkatının təmsilçiləri də TŞ-də yer almalıdırlar. Yalnız bu halda BMT-nin nüfuzunu artırmaq və ədalətli dünya nizamına nail olmaq mümkündür.

*Mübariz FEYİZLİ*

# Nobel sülh mükafatı: kimin haqqı çatır?

## Bu nüfuzlu beynəlxalq mükafat Azərbaycan nefti, Daşkəsən dəmiri və Bakı fəhləsinin alın tərinin məhsuludur

Nobel mükafatları 1895-ci ildə Alfred Nobel adlı isveçli sənayeçinin vəsiyyətnaməsi əsasında təsis olunub. Nobelin ölümündən sonra onun böyük sərvətinin bir hissəsi xüsusi fonda yönləndirildi və bu fond hər il fizika, kimya, tibb, iqtisadiyyat, ədəbiyyat və sülh sahələrində ən mühüm xidmətlərə görə mükafatlar təqdim edir. Bəs Alfred Nobel bu sərvəti haradan almışdı?

1867-ci ildə dinamiti kəşf etməsi ona dünya miqyasında şöhrət və zənginlik qazandırdı. Dinamit əvvəlcə mədənçilik və inşaat sahəsində inqilabi texnologiya kimi təqdim olunsa da, çox keçmədi ki, müharibə sənayesinin də əsas komponentinə çevrildi. Yəni Nobel sülh mükafatının da mayası əslində savaş, silah, fəhlə qanı və neftdən tutulmuşdu. Burası da var ki, Nobel qardaşları öz sərvətlərinin mühüm bir hissəsini Azərbaycanda - Bakı neftindən və Daşkəsən dəmir filizindən qazanmışdılar.

1870-ci illərdə Robert və Lüdviq Nobel qardaşları Bakıda "Branobel" adlı neft şirkəti qururlar. Bu şirkət o dövrün ən böyük neft imperiyalarından birinə çevrilir və Nobel ailəsinin sərvətini qat-qat artırır. "Branobel" o dövrdəki neft ixracının təxminən 50 faizini həyata keçirirdi. Nobel qardaşları təkcə neftlə kifayətlənməyib, Azərbaycanın dağ-mədən sənayesində, o cümlədən Daşkəsən dəmir filizi yataqlarında da pay sahibi oldular. Bu da onların silah və texniki avadanlıq istehsalında istifadə edilən xammal mənbələrini birbaşa nəzarətə götürdüklərini göstərir.



### Etik və tarixi paradoks

Burada mənəvi ziddiyyət ortaya çıxır:

* Bir tərəfdə müharibə sənayesinə, dinamitə, işğalçılıq layihələrinə xidmət edən sərvət;

* Digər tərəfdə "sülhə xidmət" adı ilə paylanan mükafatlar.

Bütün bu zənginlik kolonial xarakterli iqtisadi modellər üzərindən qurulmuşdu - yəni bir ölkənin (məsələn, Azərbaycanın) resursları və insan zəhməti üzərində başqa bir ölkənin (İsveçin, ümumən Avropanın) elmi, mədəni və siyasi nüfuzu qurulurdu. Tarix kitablarında və Nobel mükafatının rəsmi saytında bu həqiqətlər nadir hallarda vurğulanır, çünki məlum faktlar dünya elmi və siyasi rəmzlərinə kölgə salır. Amma fakt faktlığında qalır: Nobel mükafatı fondu Azərbaycan nefti, Daşkəsən dəmiri və Bakı fəhləsinin alın tərinin məhsuludur. Azərbaycan ictimaiyyəti bu məsələni daha çox gündəmə gətirməlidir. Çünki bu, təkcə keçmişə xas ədalətsiz bölgü deyil, həm də tarixi yaddaş məsələsidir. Nobel mükafatı ilə öyünənlər bəlkə də heç düşünmürlər ki, o sərvətin əldə olunmasında nələr yatır.



### Bəzi adlar tarixə sülhün rəmzi kimi düşsə də...

Hər ilin oktyabrında hamının gözü Norveçin Oslo şəhərinə dikilir: görəsən, Nobel sülh mükafatı bu dəfə kimə veriləcək? Bu mükafat təkcə təltif deyil, həm də bir siqnal, dünya ictimaiyyətinə verilən siyasi və mənəvi mesajdır. Bununla belə Nobel sülh mükafatı ən çox müzakirə və tənqid olunan mükafatlardan biridir, çünki burada riyazi düstur yoxdur. Elmi ixtira, texnoloji yenilik, yaxud ədəbi əsər kimi ölçülə bilən nəsə yoxdur. Burada əsas sözü imic, obraz, təəssürat və zamanın ruhu deyir.

Özünü bu istiqamətdə təbliğ və təqdim edənə Nobel mükafatı verilmir. Bu, xüsusilə sülh mükafatı üçün keçərlidir. Kim özünü mükafat almaq üçün çox qabağa verirsə, onun şansı azalır. Bunun aşkar nümunələrindən biri ABŞ prezidenti Donald Tramp oldu. Tramp açıq şəkildə bəyan etdi ki, Nobel sülh mükafatına layiqdir. Özünü təbliğ etdirdi, komandasını Avropada lobbiçiliklə məşğul olmağa göndərdi, hətta komitəni qınadı. Amma nəticəsi olmadı. Trampın siyasəti çox vaxt təzyiq üzərində qurulduğundan onun obrazı Oslo komitəsinin ideallarına uyğun gəlmirdi. Bu komitə humanizm, yumşaq güc və dialoqa üstünlük verir. Son illərin nümunələrinə baxsaq, aydın olar ki, Nobel sülh komitəsi güclü, mübariz, amma təvazökar bir obraz axtarır. Elə Maria Karina Maçado kimi. O, Venesuelada müxalifət lideridir, avtoritar rejimə qarşı çıxır, qadındır, Qərb universitetlərində təhsil alıb, insan haqları uğrunda mübarizə aparır. Onun obrazı müasir Qərb dəyərlərinin təcəssümüdür. Üstəlik, o, mükafata iddialı görünmürdü, bu da öz təsirini göstərdi. Komitə bu dəfə onu qəhrəman seçdi.

### Unudulmuş qəhrəmanlar

Niyə Mahatma Qandi Nobel sülh mükafatına layiq görülmədi? Bu sual Nobel komitəsinin verdiyi qərarların etikliyi, obyektivliyi və geosiyasi təsirlərə nə qədər açıq olub-olmaması ilə bağlı bir məsələdir. Hətta bu gün də Nobel sülh mükafatı haqqında danışılarkən Qandinin adının çəkilməməsi ümumbəşəri dəyərlərə sadiq bir şəxsiyyətin həyatına və mübarizəsinə laqeydlik kimi izah olunur. Mahatma Qandi Hindistanın müstəqillik mübarizəsinin lideri, zorakılığa qarşı dinc müqavimət ideyasının simvoludur. O, "ahimsa" (zərər verməmək) və "satyaqraha" (həqiqətin gücü) prinsipləri ilə təkcə Hindistanda yox, bütün dünyada ictimai-siyasi fəlsəfəyə yeni yön vermişdi. Onun mübarizəsi qan tökmədən imperiya idarəçiliyinə qarşı çıxmaqla formalaşmışdı. Bütün insanlıq üçün nümunə olan bir yol. Mahatma Qandi rəsmən 5 dəfə Nobel sülh mükafatına namizəd göstərilib: 1937, 1938, 1939, 1947 və sonuncu dəfə 1948-ci ildə, ölümündən az əvvəl. O dövrlərdə Qandinin mübarizəsi artıq beynəlxalq aləmdə tanınmışdı. Əgər Nobel sülh mükafatı doğrudan da "insanlıq naminə mübarizə" və "sülhün bərqərar olunması" üçün verilirdisə, Qandi bu kriteriyalara tam cavab verirdi. Bəs niyə almadı? Rəsmi səbəb: mükafat ölmüş şəxsə verilmir. Qandi 1948-ci ilin yanvarında hindistanlı ekstremist tərəfindən öldürüldü, Nobel komitəsi həmin il mükafatı heç kimə vermədi. Ancaq Nobel mükafatının nizamnaməsi ölmüş şəxslərə mükafat verilməsini qəti şəkildə qadağan etmir, qaydalarda yazılıb ki, əgər laureat elan olunduqdan sonra vəfat edərsə, mükafat yenə də ona düşür (posmortal qayda sonralar sərtləşdirildi). Yəni əgər komitə istəsəydi, 1948-ci ildə Qandiyə ölümündən sonra mükafat verə bilərdi. Bəs gerçək səbəb nə idi? Tarixçi və araşdırmaçılar bu qərarın arxasında bir neçə geopolitik və ideoloji səbəbin durduğu versiyasını irəli sürürlər: birincisi, Qandinin müstəmləkəçiliyə qarşı mübarizəsi Qərb üçün başağrısı idi. Qandi açıq şəkildə imperializmə qarşı çıxırdı. Nobel komitəsinin üzvləri də o dövrdə əsasən Avropa dövlətlərinin nümayəndələri idilər, bu dövlətlərsə öz müstəmləkələrini itirmək istəmirdi. Belə bir şəxsə mükafat vermək Qərbin imperiya ambisiyalarını zədələyə bilərdi. İkincisi, Qandinin II Dünya müharibəsinə münasibəti bimənalı deyildi, o, zorakılığa görə hər iki tərəfi - həm nasist Almaniyasını, həm də müttəfiqləri tənqid edirdi, hətta Hitlerə məktub yazaraq onu müharibədən çəkinməyə çağırmışdı. Bu isə Qərbdə birmənalı qarşılanmırdı. Üçüncüsü, daxili siyasi balanslar. Qandinin mövqeyi Hindistanın özündə də birmənalı deyildi. Onun müsəlmanlara tolerant münasibəti hind millətçiləri arasında narahatlıq yaradırdı. Qandini dövlətin zəifləməsinə səbəb olan biri kimi görənlər də vardı.

Nobel komitəsinin keçmiş direktoru Geir Lundestad sonradan öz memuarlarında belə yazırdı: "Əgər Nobel sülh mükafatına bir nəfər həqiqətən layiq idisə, o da Mahatma Qandi idi. Onun mükafat almaması komitənin ən böyük tarixi səhvi idi". Bu etiraf Qandinin əhəmiyyətini gec də olsa təsdiqlədi, amma bu tanınma rəmzi səviyyədə qaldı. Qandinin Nobel almaması onun irsini kiçiltmədi, əksinə, bu qərarın özü bir qlobal təəssüf simvoluna çevrildi, çünki Qandinin həyat yolu, dinc müqavimət fəlsəfəsi bu gün də bir çox liderlər, hərəkatlar və fəallar üçün ilham mənbəyidir. Nelson Mandela, Martin Lüter Kinq, Dalay Lama və başqaları ondan nümunə götürmüşdülər. Qandi mükafat almadı, çünki siyasi və geosiyasi kontekst onu Nobel komitəsi üçün "riskli" fiqura çevirirdi. Nəticədə Mahatma Qandi bütün Nobel laureatlarından daha böyük azadlıq simvoluna çevrildi. Əslində, Qandinin özü də heç vaxt Nobelə iddia etməmişdi.

Digər bir "unudulmuş qəhrəman" Eleanora Ruzvelt ABŞ-ın keçmiş prezidenti Franklin Ruzveltin həyat yoldaşı, amma özü də dünya səviyyəli siyasətçi və hüquq müdafiəçisi idi. İkinci Dünya müharibəsi zamanı cəbhədə çalışdı, müharibədən sonra isə İnsan Haqları üzrə BMT Bəyannaməsinin hazırlanmasına rəhbərlik etdi. Onu "dünyanın birinci xanımı" adlandırırdılar. Amma Nobel komitəsi ona mükafat vermədi. Əvəzində ölümündən sonra BMT onu insan haqları üzrə mükafata layiq gördü.

Bəzən komitənin qərarları açıq-aşkar siyasi xarakter daşıyır. Məsələn: 2009-cu ildə Barak Obama prezidentlik səlahiyyətlərinin icrasına yenicə başlamışkən Nobel sülh mükafatı aldı. Nəyə görə? "Diplomatik səylərinə görə", amma nəticə yox idi. Bu, sadəcə, siyasi jest idi. 2012-ci ildə Avropa İttifaqı mükafat aldı - yəni şəxs yox, təşkilat. Bu da bir simvol idi, "sülhün layihəsi" kimi qələmə verilirdi. Nobel tarixində daha bir maraqlı fakt: alman fiziki Arnold Zommerfeld 80 dəfə mükafata namizəd göstərilib, hər dəfə də mükafatı onun tələbələrinə veriblər. Bu, həm ədalətsizlikdir, həm də Nobel komitəsinin qərarlarının çox vaxt emosional və simvolik olduğunu sübut edir. Sonda bir həqiqəti qəbul etmək lazımdır: Nobel sülh mükafatı əslində bir güzgüdür. O, dünyanı necə görmək istədiyimizi əks etdirir. Komitə konkret nəticələrdən çox ictimai əhval-ruhiyyəyə, siyasi trendlərə, zamanın ruhuna uyğun hərəkət edir. Bəzən bu, möhtəşəm qərarların qəbulu ilə nəticələnir, sülhə təkan verir. Bəzən isə böyük tarixi şəxsiyyətlərin unudulması ilə nəticələnir. Bununla belə, Nobel mükafatı hələ də dünyanın ən prestijli və ən çox mübahisə doğuran mükafatı olaraq qalır.

### Kimin haqqı çatır?

Nobel sülh mükafatı dünyada sülh, dialoq və humanizm ideyalarını təşviq edən ən nüfuzlu mükafat sayılır. Amma bu mükafatın kimə verildiyi, kimdən əsirgəndiyi, kimin layiq görülmədiyi illərdir bəşəriyyətin vicdanını narahat edən əsas suallardandır.

Dövlətçilik tariximizin memarı olan Heydər Əliyev xüsusilə 1990-cı illərin ağır, xaotik keçid dövründə Azərbaycanı parçalanmaqdan, vətəndaş müharibəsindən, anarxiyadan xilas edən şəxsiyyət oldu. Onun liderliyi ilə:

* Dövlətin əsas institutları bərpa edildi.

* Ordu formalaşdırıldı.

* Xarici siyasətdə balanslı kurs başlandı.

* Neft müqavilələri imzalandı - "Əsrin müqaviləsi" Azərbaycanın müstəqilliyini iqtisadi zəminlə möhkəmləndirdi.

* Ən əsası, ölkədə sabitlik və sülh şəraiti bərpa olundu.

Bu faktlar Nobel sülh mükafatı üçün real əsaslar yaradırdı. Əgər bu mükafat həqiqətən də sülh və sabitliyə töhfə kimi verilsəydi, Heydər Əliyev bu mükafata tamamilə layiq idi. Qorbaçova verildi, Əliyevə yox - bu, ədalətdirmi? 1990-cı ildə Mixail Qorbaçov Nobel sülh mükafatına layiq görüldü. Rəsmi arqument bu idi: "Soyuq müharibəyə son qoymaqda və silahsızlanma prosesində roluna görə". Amma eyni Qorbaçov dövründə:

* SSRİ-nin tərkibindəki onlarla respublikada qanlı toqquşmalar baş verdi.

* Bakı, Tbilisi, Vilnüsdə dinc əhaliyə qarşı ordu yeridildi.

* Dağlıq Qarabağda separatizmin təməli qoyuldu.

* Qorbaçovun passiv və ziddiyyətli siyasəti Qafqazda müharibələrin başlanmasına zəmin yaratdı.

Bütün bunların fonunda ona Nobel vermək tarixi ədalətsizlikdir.

İlham Əliyev - yeni əsrdə Qafqaza sülh gətirən lider

Prezident İlham Əliyev xüsusilə 2020-ci ildən sonra Cənubi Qafqazda real sülh və inkişaf gündəliyini masaya gətirən, onu tərif yox, konkret nəticə ilə təsdiqləyən nadir liderdir. O həm də:

* İşğala son qoydu, ərazi bütövlüyünü bərpa etdi.

* Ermənistana qarşı hərbi yox, siyasi-mədəni sülh gündəliyi təklif etdi.

* Zəngəzur dəhlizi, yeni kommunikasiya xətləri, regional əməkdaşlıq kimi inteqrasiya layihələrini gündəmə gətirdi.

* İndi Rusiya, İran, Avropa, Türkiyə, Orta Asiya və Çin arasında strateji körpü funksiyasını yerinə yetirir.

Bu gün Cənubi Qafqazda sabitlik varsa, bu sabitlikdə İlham Əliyevin praqmatik, cəsarətli və qətiyyətli liderliyinin birbaşa rolu var. Nobel komitəsi nəyi unudur? Əməli nəticələrə yox, tezislərə üstünlük verilir. İlham Əliyev isə sadəcə danışan deyil, icra edən, reallığı dəyişən liderdir. Tarix və bəşəriyyət qarşısında bir çağırış olmalıdır: sülhü təkcə propaqanda ilə yox, əməli nəticə ilə bərqərar edən liderlər - Nobel sülh mükafatına real, layiqli namizədlərdir.

### Mehriban Əliyeva - sülh, humanizm və mədəniyyətin qlobal elçisi

Mehriban Əliyeva birinci xanım olmaqla yanaşı, həm də beynəlxalq humanitar siyasətin simalarından biridir. O, müasir qlobal humanitar diplomatiyanın memarıdır, real nəticələrə imza atan, dünya miqyasında hörmət qazanmış şəxsiyyətdir. Onun fəaliyyəti yalnız ölkə sərhədləri ilə məhdudlaşmır, insanlıq haradadırsa, Mehriban Əliyeva da oradadır. Mehriban xanım həmçinin dünya mədəni irsinin qoruyucusudur. O, respublikamızda və dünyanın bir çox ölkəsində onlarla mədəniyyət abidəsinin bərpasına dəstək göstərib. Bu, sadəcə mədəni irsin qorunması deyil, dinindən və irqindən asılı olmayaraq insanlığın ortaq yaddaşına verilən töhfədir. Mehriban Əliyeva rəhbərlik etdiyi Heydər Əliyev Fondu vasitəsilə talasemiya xəstəsi olan uşaqların müalicə və transplantasiya xərclərini qarşılayıb, uşaq evləri və internat məktəblərini yenidən qurub, əmək və müharibə veteranlarına, şəhid ailələrinə və qazilərə xüsusi proqramlar ayırıb. Fondun qanvermə aksiyaları, orqan transplantasiyası təşəbbüsləri, xüsusi məktəb və sağlamlıq mərkəzləri artıq bir çox ölkədə örnək kimi təqdim olunur.

Bütün bunlardan başqa Mehriban Əliyevanın beynəlxalq dialoqun təşviqinə və dinlərarası əməkdaşlığa verdiyi töhfələr də əvəzsizdir. Mehriban xanım bu kimi fəaliyyətləri ilə dinlər və sivilizasiyalar arası sülh mesajı verir. Bu isə Nobel Komitəsinin əsas meyarlarından biridir.

COVID-19 pandemiyası zamanı Mehriban Əliyeva və Heydər Əliyev Fondu 20-dən çox ölkəyə tibbi yardım göndərdi, vaksinlərin ədalətli bölüşdürülməsinə çağırış etdi, Azərbaycanın özündə isə xəstəxanalar, test mərkəzləri tikilib istifadəyə verildi. Bunlar qlobal həmrəylik və insan həyatına verilən dəyər baxımından çox önəmli addımlardır. Mehriban Əliyeva Nobel sülh mükafatı üçün layiqli və nümunəvi namizəddir. Mehriban Əliyevanın fəaliyyəti humanizmə əsaslanır, insani motivasiyaya dayanır, sadəcə xeyriyyə deyil, sistemli və davamlı humanitar diplomatiya modelidir. O, bu dövrün sülh, mədəniyyət və insanlıq uğrunda mübarizə aparan nadir qadın liderlərindəndir. Bu səbəbdən Mehriban Əliyevanın Nobel sülh mükafatına namizədliyi irəli sürülərsə, bu, təkcə Azərbaycanın yox, bütün dünyanın qazanacağı mənəvi dəyər olar.



***Kərəmət QƏNBƏROV,***
***Beynəlxalq hüquq üzrə ekspert***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi” istiqaməti üzrə hazırlanmışdır**

# Vətənpərvərlik: milli dəyərlər üzərində qurulan güclü mənəvi təməl...



Ölkəmizdə həyata keçirilən uğurlu dövlət siyasəti gənclərin hərtərəfli inkişafının təmin olunmasında əsaslı rol oynamaqdadır.  Bunun nəticəsidir ki, Azərbaycan gəncliyi ictimai həyatın bütün bölmələrində aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humantiar, sosial tədbirlərin həyata keçirilməsində yaxından iştirak edir. Azərbaycanda yürüdülən gənclər siyasətinin əsasında həm də gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyələndirilməsi dayanır. Bu mənada da milli dəyərlərimizin, adət-ənənələrimizin qorunub saxlanılması və gələcək nəsillərə yetişməsi üçün gənc nəslin üzərinə böyük məsuliyyət düşür. Qlobal inkişaf dövrü sayılan XXI əsrdə xalqımızın milli dəyərlərinin qorunması, onların tanıdılması yönümündə mühüm işlər aparılır.

Vurğulandığı kimi, milli ruhda böyüyən Azərbaycan gəncliyi də ölkəmizin strateji hədəflərinə doğru irəliləməsi prosesində fəal iştirakçı kimi yer alır, iqtisadi, siyasi və sosial həyatda mühüm rol oynayır. Hər bir ölkənin inkişafı texnoloji tərəqqiyə və iqtisadi resurslarla yanaşı, həm də milli dəyərlər üzərində qurulan güclü mənəvi təməllərə əsaslanmalıdır. Bu prosesdə ön sırada çıxış edən gənclər isə ölkələrinin tarixini, mədəniyyətini və ənənələrini mənimsəməlidirlər. Bu şüur onların vətəndaşlıq məsuliyyətini artırır və cəmiyyətdə birliyə, həmrəyliyə töhfə verir. Gələcək nəslin milli ruhda böyüməsi Azərbaycan cəmiyyətinin gələcək inkişafı ilə bağlı praqmatik proqnoz yaradır - paralel olaraq gənclərin ölkə daxilində və xaricdə milli dəyərləri təmsil etmələri, Azərbaycanın beynəlxalq imicinin qorunmasında və gücləndirilməsində mühüm rol oynayır. Qeyd edək ki, 44 günlük Vətən müharibəsində qazandığımız qələbədə Ali Baş Komandanın çağırışı ilə silaha sarılaraq öz sinəsini düşmən gülləsinə sipər edən gəncliyimizin rolu və xidməti əvəzedilməzdir. Azərbaycan ordusunun əsas qüvvəsini təşkil edən gənclər öz torpaqlarını azad etmək üçün böyük fədakarlıq göstərdilər. Vətən müharibəsi zamanı döyüş meydanında olan hər bir gənc, illərlə aldığı tərbiyənin, dövlətin ona göstərdiyi diqqətin və milli dəyərlərin gücü ilə irəli atıldı. Onlar düşmənə qarşı təkcə fiziki deyil, həm də mənəvi üstünlüyə sahib idilər.

**Gənc nəsillərin vətənpərvərlik ruhunda böyüdülməsi...**

Mövzuya aid fikirlərini “Yeni Azərbaycan”la bölüşən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov bildirib ki, hər bir xalq üçün ən vacib olan məsələlərdən biri özünün daxili birlik və bərabərliyini təmin etməkdir. Deputat qeyd edib ki, vətənpərvərlik bu birliyi formalaşdıran və onu qoruyan ən güclü təməl daşıdır: “Tarixdə dəfələrlə sübut olunub ki, vətəndaşların vətəninə olan sevgisi və bağlılığı zaman-zaman onu çətin dövrlərdən, müharibələrdən və təhdidlərdən xilas edib, qələbəsinin təminində əsaslı rol oynayıb. Gənc nəsillərin vətənpərvərlik ruhunda böyüdülməsi, tərbiyə alması onların gələcəkdə daha məsuliyyətli və səmərəli vətəndaşlar olmalarını təmin edir. Məktəblərdə və universitetlərdə milli tarix, mədəniyyət və dəyərlər haqqında müvafiq dərslər, gənclərin öz ölkələrinə olan bağlılığını artırır. Həmçinin bu, onlara yanlış ideologiyalardan qorunmaq imkanı verir”.

B.Məhərrəmov bildirib ki, vətənpərvərlik yalnız məktəb kitablarında deyil, həm də gündəlik həyatımızda, ailələrdə, müxtəlif sosial qruplarda formalaşmalıdır: “Hər bir insanın cəmiyyətə xidmət etməsi, dövlətinin maraqlarını qoruması və mədəniyyətini təbliğ etməsi vətənpərvərlik anlayışının bir hissəsidir”.

**Uğurlu bu gün, işıqlı sabah üçün ...**

Deputatın sözlərinə görə, vətənpərvərlik həm də gələcək üçün vacib bir ənənədir: “Hər bir xalqın tarixi boyunca qarşılaşdığı çətinliklər və mübarizələr onu daha güclü edir. Bu günün vətənpərvər insanları, sabahın alimləri, iş adamları və mühəndisləri olacaq. Eyni zamanda, vətənpərvərlik xalqın beynəlxalq arenada nüfuzunu və gücünü artırır”.

Millət vəkili sonda qeyd edib ki, vətənpərvərlik həm də bir xalqın şərəfi, onu qoruyan insanların qəhrəmanlığı və torpaqlarının sədaqətlə müdafiə olunması deməkdir. “Unutmayaq ki, vətənpərvərlik sadəcə bir hiss deyil, həm də bizim gələcəyimizi təmin edən əsas bir dəyərdir”, - deyə o əlavə edib.

***Yeganə***

# 19-cu sanksiyalar paketi...

## Rusiyanı sülhə məcbur etmək mümkün olacaqmı?

Avropa İttifaqına (Aİ) üzv ölkələr Rusiyaya qarşı 19-cu sanksiyalar paketini qəbul ediblər. Qeyd edək ki, bu istiqamətdə işlərə hələ iyul ayında - 18-ci sanksiyalar paketi təsdiqləndikdən dərhal sonra başlanmışdı. O zaman Avropa İttifaqı “yarımçıq tədbirlərlə kifayətlənməyəcəyini” bəyan etmişdi. Brüssel hesab edir ki, Rusiyanın işğalçı siyasətini dayandırmaq üçün sanksiyaları daha da gücləndirmək lazımdır.

**18-ci paketdən sonra...**

Xatırladaq ki, 18-ci sanksiyalar paketinin qəbulu asan başa gəlməmişdi. Çünki bu paket Slovakiyanın razılıq verməməsi səbəbindən qəbul edilə bilmirdi. Slovakiya sanksiyalara razılıq vermək üçün Avropa Komissiyasının Rusiya qazına idxal qadağası planı nəticəsində iqtisadi zərər yaranacağı təqdirdə, bunun kompensasiya olunmasına dair vəd tələb edirdi. Daxili müzakirələrdən sonra Slovakiya yeni sanksiyaların təsdiqlənməsinə yaşıl işıq yandırdı. Avropa İttifaqının  Rusiyaya qarşı yeni sanksiyalarının qəbul edilməsini ləngidən Slovakiya “güzəştlər”dən sonra buna razılıq verib. Bildirilirdi ki, Slovakiyanın vetosu sanksiyalar paketinin qəbul edilməsini ləngidirdi, lakin sonradan Bratislavanı əmin ediblər ki, Rusiya qazının idxalına tam qadağa planı yeni sanksiyalar paketinə uyğun şəkildə həyata keçirilərsə, o, ağır iqtisadi və maliyyə nəticələrindən narahat olmaya bilər.

18-ci sanksiya paketinə “kölgə donanmasının” daha 105 gəmisi, onların köməkçi vasitələri daxil edilib və Rusiya banklarının maliyyələşməyə çıxışı məhdudlaşdırılıb. Həmçinin Avropa İttifaqı  sanksiyalardan yan keçməyə görə daha 26 şirkəti məhdudlaşdırıcı tədbirlər siyahısına daxil emişdi. Onlardan 11 şirkət Rusiya xaricində yerləşir: Çində 7, Honkonqda 3 və Türkiyədə 4 şirkət, həmçinin Hindistanda Rusiyaya məxsus neft emalı zavodu buraya daxildir. Bu şirkətlər Rusiyanın hərbi-sənaye kompleksi üçün tədarük həyata keçirməkdə şübhəli bilinib.

**19-cu sanksiyalar paketində nələr var?**

Qeyd edək ki, 19-cu sanksiyalar paketinin qəbulu da asan olmayıb. Çünki Aİ daxilində həmin məhdudlaşdırıcı tədbirlərin qəbul olunmasına bir sıra müqavimətlər var idi. Narazılar hesab edirdilər ki, bu sanksiyalar Aİ ölkələrinə də mənfi təsir göstərə bilər. Buna baxmayaraq, ittifaq daxilində konsesusa gəlmək mümkün olub.  Avropa İttifaqının 19-cu sanksiyalar paketi üzv ölkələrə Rusiyadan maye qaz idxalını qadağan edir. “Reuters” agentliyinin məlumatına görə, yeni sanksiyalar paketi, həmçinin Rusiya diplomatlarının Avropa İttifaqı ölkələri ərazisində hərəkətinə məhdudiyyətlərin tətbiqini də nəzərdə tutur. Qadağanın mərhələli şəkildə həyata keçiriləcəyi bildirilir. Qısamüddətli müqavilələr üçün 6 aylıq keçid dövrü müəyyən edilib. Uzunmüddətli müqavilələr üzrə qadağa isə 2027-ci il yanvarın 1-dən qüvvəyə minəcək.

Sanksiya siyahısına “kölgə donanması”nın daha 117 tankeri daxil edilib, bununla da sanksiya altında olan gəmilərin ümumi sayı 558-ə çatır. “Maliyyə” blokuna qarşı məhdudlaşdırıcı tədbirlər aşağıdakıları əhatə edir: Rusiya tərəfindən istifadə olunan təyyarə və gəmilərin üçüncü ölkəyə satıldıqdan sonra ilk 5 il ərzində sığortalanmasının qadağan edilməsi; beş Rusiya bankı ilə əməliyyatlara tam qadağa qoyulması və elektron ödəniş sistemlərinə, xüsusilə “Mir” sisteminə mövcud qadağanın, eləcə də Belarus və Qazaxıstandakı daha dörd banka qarşı sanksiyaların genişləndirilməsi. Bundan başqa, Avropa operatorlarının Rusiyada turizmlə bağlı xidmətlər göstərməsinə qadağa qoyulacaq.




**ABŞ “Rosneft” və “Lukoyl”a qarşı sanksiyalar tətbiq edib**

Diqqətçəkən məqam Aİ ilə yanaşı, ABŞ-ın da Rusiyaya qarşı yeni sanksiyalar tətbiq etməsidir. Belə ki, Vaşinqton Rusiyanın iki ən böyük neft şirkətinə qarşı yeni sanksiyalar tətbiq edib. ABŞ Maliyyə Nazirliyinin açıqlamasına görə, yeni sanksiyalara “Rosneft” və “Lukoyl” neft şirkətləri məruz qalıb. “ABŞ Maliyyə Nazirliyinin Xarici Aktivlərə Nəzarət İdarəsi Rusiyanın Ukraynadakı müharibənin sülh yolu ilə başa çatdırılması prosesinə ciddi sadiqlik göstərməməsi səbəbindən əlavə sanksiyalar tətbiq edir”, - deyə Maliyyə Nazirliyinin açıqlamasında qeyd olunub.

Həmçinin “Lukoyl”un 6 törəmə şirkəti, xüsusilə “Lukoyl-Zapadnaya Sibir” və “Lukoyl-Kaliningradmorneft” də sanksiyalar siyahısına daxil edilib. Siyahılarda təxminən 30 törəmə şirkəti olan “Rosneft”in “Sibneftegaz”, “Rospaninterneşnl”, “RN-Purneftegaz” kimi şirkətləri də sanksiyalar siyahısına düşüb. ABŞ Maliyyə Nazirliyi açıqlamada “50 faiz qaydası”nı xatırladıb. Belə ki, “SDN List”də adıçəkilən şirkətlərin bütün törəmə şirkətləri, hətta “qara siyahı”da birbaşa adları çəkilməsə belə, sanksiya altında hesab olunur.

**Rütte ilə görüşdən sonra...**

Məsələyə ABŞ Prezidenti Donald Tramp da münasibət bildirib. Trampın sözlərinə görə, o, “Lukoyl” və “Rosneft”ə qarşı sanksiyaların tətbiqi barədə qərar verməzdən əvvəl uzun müddət gözləyib. ABŞ lideri bu barədə NATO-nun Baş katibi Mark Rütte ilə görüşdən sonra Ağ Evdə jurnalistlərə açıqlamasında danışıb. “Sadəcə, vaxtın gəldiyini düşündüm. Uzun müddət gözlədim”, - deyə o qeyd edib.

Amerika lideri Qəzza sektorunda münaqişənin dayandırılması barədə razılaşmalar əldə edilənə qədər Rusiya-Ukrayna münaqişəsinin nizamlanmasını gözlədiyini vurğulayıb. Tramp, həmçinin bir daha 8 münaqişəni dayandıra bildiyini deyib: “Bütün bu müharibələr ki, mən onlarla bacardım. Bir müharibə qalıb və bu, doqquz olacaq. Mən düşünürəm ki, biz bunu da bacaracağıq”.

Qeyd edək ki, bütövlükdə, sanksiyaların genişlənməsi Rusiya iqtisadiyyatına ciddi zərbə vurmaqdadır. Qərb bu yolla Moskvanı sülhə məcbur edəcəyini düşünsə də, proseslər bunun hələ ki, real olmadığını göstərir.

***N.BAYRAMLI***

# Yaponiya tarixində ilk qadın Baş nazir...

## Sanae Takaiçi inflyasiya ilə mübarizə üzrə genişmiqyaslı tədbirlər hazırlayır



Yaponiyada Baş nazir Şiqeru İşibanın hakim Liberal Demokrat Partiyasının (LDP) sədri vəzifəsindən istefa verməsindən sonra yeni hökumət başçısının seçilməsi gündəmə gəlmişdi. Xatırladaq ki, Şiqeru İşiba ötən ilin oktyabrında Fumio Kişidanın başçılıq etdiyi hökumətin istefasından sonra Liberal Demokrat Partiyasının rəhbəri vəzifəsini icra edirdi.

İyulun 20-də Yaponiyada parlamentin yuxarı palatasına keçirilən seçkilərdə Ş.İşibanın rəhbərlik etdiyi Liberal Demokrat Partiyası (LDP) və onun koalisiya tərəfdaşı “Komeito” qələbə çalsa da, palatadakı bir çox yerləri itirib. Ölkənin müasir tarixində bu, ilk belə siyasi hadisə idi. Demək olar ki, yuxarı palatada hakim koalisiya 248 yerin yarısından azına nəzarət edir, bu da hökumətin qanun qəbul etmək imkanlarını ciddi şəkildə məhdudlaşdırır. Son seçkilərin nəticələrinə görə, müxalif partiyalar - Konstitusiya Demokratiya Partiyası və Xalqın Demokratiya Partiyasının parlamentin yuxarı palatasında mandatının sayı artıb.

İyulun 20-dəki seçkilərdə istədiyi nəticəni əldə etməyən Şiqure İşiba LDP-nin rəhbəri və baş nazir vəzifəsindən istefa vermək bərədə düşünürdü. Yaponiya KİV-ləri iddia edirdi ki, İşiba avqustun sonunda istefa verə bilər. Lakin İşiba istefa verməyə tələsmədi - o, qərarını verməmişdən öncə keçmiş hökumət başçıları - Yoşihide Suqa, Fumio Kişida və Taro Aso ilə görüşlər keçirdi - məlumatlara görə, görüş zamanı yeni hökumətin formalaşması ilə bağlı məsələni onlarla ətraflı müzakirə edib. Nəticə etibarilə , o, oktyabrda istefa verdi.

Artıq Yaponiya parlamenti ölkənin yeni Baş nazirini seçib. Bu, hakim Liberal Demokrat Partiyasının (LDP) sədri, xanım Sanae Takaiçidir. O, İşiba hökumətində iqtisadiyyat və xarici işlər naziri kimi yüksək postları tutub. Şiqeru İşibanın hakim partiyanın rəhbəri vəzifəsindən istefa verdiyini açıqlamasından sonra oktyabrın 4-də keçirilən seçkidə S.Takaiçi partiyanın sədri seçilmişdi. Parlamentin aşağı palatasından sonra yuxarı palata da 64 yaşlı S.Takaiçinin ölkənin Baş naziri vəzifəsinə seçilməsi barədə qərar qəbul edib. Beləliklə, Yaponiya tarixində ilk dəfə olaraq hökumətə qadın rəhbərlik edəcək.

Qeyd edək ki, hakim LDP müxalifətin əsas siyasi gücü olan Yaponiya İnnovasiya Partiyası (JIP) ilə oktyabrın 20-də koalisiya hökuməti qurmaq barədə razılığa gəlib. Bu da LDP lideri Sanae Takaiçinin ölkənin ilk qadın Baş naziri olmasına zəmin yaradıb. Razılıq Takaiçi və JIP rəhbəri Hirofumi Yoşimura arasında telefon danışığından sonra əldə edilib. Bu addım “Komeito” partiyasının LDP ilə 26 illik koalisiyasına son qoymasından sonra atılıb və Yaponiyanın siyasi mənzərəsində böyük dəyişiklik olduğunu göstərir.

Xatırladaq ki, LDP-nin 465 üzvü olan aşağı palatada 196 yeri var və onun iclasında 233 səslə Baş nazir seçilməli idi. Parlamentdə Yaponiya Konstitusiya Demokratik Partiyası 148, JIP 35, Xalq Naminə Demokrat Partiyası 27 və “Komeito” 24 mandata malikdir. Digər tərəfdaşlarla razılaşmadan sonra hakim partiya seçkilərdə lazımi səs toplaya bilib.

Yaponiyanın NHK kanalının məlumatına görə, yeni Baş nazir kabinet üzvlərini tezliklə açıqlayacaq. LDP-də sədr seçkisində onun əsas rəqibi olan Koizumi Şincironun müdafiə naziri, digər rəqibi Hayaşi Yoşimasanın isə daxili işlər və kommunikasiya naziri təyin olunacağı güman edilir. Bildirilir ki, Takaiçi Sanae artıq partiyanın keçmiş Baş katibi Moteqi Toşimitsunu xarici işlər naziri, Katayama Satsukini isə maliyyə naziri təyin etməyi qərarlaşdırıb.

Yeni Baş nazir artıq bir sıra hədəflər istiqamətində tədbirlərə başlayıb. Belə ki, Yaponiyanın yeni Baş naziri Sanae Takaiçi ev təsərrüfatlarının inflyasiya ilə mübarizə aparmasına kömək etmək üçün keçənilki 92 milyard dolları keçəcək iqtisadi stimul paketi hazırlayır. “Reuters” agentliyi xəbər verir ki, yeni Baş nazirin strategiyası 3 əsas sütun üzərində qurulacaq: inflyasiya ilə mübarizə tədbirləri, inkişaf edən sənaye sahələrinə investisiyalar və milli təhlükəsizlik.

İnflyasiyanın azaldılması səylərinin bir hissəsi olaraq, Takaiçi administrasiyası müvəqqəti benzin vergisi dərəcəsini tez bir zamanda ləğv etməyi planlaşdırır. O, həmçinin əməkhaqqını artırmaq üçün mövcud vergi güzəştlərindən istifadə edə bilməyən kiçik və orta biznesin dəstəklənməsinə diqqət yetirəcək. Yeni hökumət bu məqsədlə subsidiyalarını genişləndirməyi hədəfləyir.



Paket, həmçinin hökumətin strateji iqtisadi inkişafa diqqət yetirdiyi üçün süni intellekt və yarımkeçiricilər kimi inkişaf sektorlarına investisiyaları da əhatə edəcək. “Reuters”in mənbələrinin məlumatına görə, paketin dəqiq həcmi hələ müəyyən edilməyib və məbləğ gələn ayın əvvəlində elan edilə bilər.

***N.BAYRAMLI***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Azadlıq şairi...

## Əhməd Cavadın anım günüdür

**Azərbaycan poeziyasının mücahid şairlərindən biri olan Əhməd Cavad azadlığın simvolu, Vətən sevgisinin rəmzi kimi də xatırlanır. Düçar olduğu məşəqqətlər, təqiblər, repressiya qarşısında əyilməzliyi böyük şairi mübarizliyin simvoluna çevirdi. Əhməd Cavad 1892-ci il mayın 5-də Gəncə qəzasının Şəmkir dairəsi, Seyfəli kəndinin Mehrəli tirəsində ruhani ailəsində dünyaya gəlib. İlk təhsilini molla məktəbində alır, üç il orada oxuyur. Sonrakı təhsilini Gəncədə Müsəlman Ruhani Seminariyasında alıb (1906-1912-ci illər) və oranı müvəffəqiyyətlə bitirib. 1913-cü ildə Zaqafqaziya şeyxülislamı Pişnamazzadənin imzası ilə ona müəllimlik şəhadətnaməsi verilib. Həmin ildə Şəmkir, Gədəbəy, Zaqatala və Gəncədə fasilələrlə dərs deyib. Birinci Cahan müharibəsi başlayanda müharibəyə gedib, dörd il cəbhədə müxbir, xeyriyyə cəmiyyətinin üzvü, katibi, bəzən də sədr müavini kimi fəaliyyət göstərib. O, Şimali Qafqazda, Dağıstanda, Batumda, Qarsda, Ərdəhanda, Gürcüstan və Türkiyədə olub. Ən çox türk xalqları yaşayan bölgələrə gedərək onlara maddi və mənəvi yardım göstərib.**

### Həyatının 29 ilini müəllimliyə həsr edib

Müharibədən sonra müəllim işləməklə yanaşı, həm yaradıcılıqla məşğul olur - Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında yaxından iştirak edir. 1920-ci ildə isə Quba qəzasının Xuluq kəndinə müəllim təyin olunur. 1922-ci ilin yayına kimi burada türk və rus dillərindən dərs deyir. O, 1922-ci ildə ali məktəbə daxil olmaq məqsədi ilə Bakıya gəlir. Azərbaycan Ali Pedaqoji İnstitutuna daxil olur, 1926-cı ildə oranı bitirir. Nərimanov adına Texnikumda, Pambıqçılıq İnstitutunda (indiki Azərbaycan Dövlət Aqrar Universiteti) müəllim, dosent, professor və kafedra müdiri vəzifələrində çalışır. Göründüyü kimi, Ə.Cavad həyatının 29 ilini müəllimlik kimi müqəddəs peşəyə bağlamışdı.

### Türk dünyasının iki Əhməd Cavadı

Azərbaycan Xalq Cümhuriyyəti dövründə “Azərbaycan dilinin sərfi və nəhvi” adlı ilk dərsliyin müəllifi olub. O, rus dili üzrə professor rütbəsi alan ilk azərbaycanlı alim idi, səkkiz-on dildə sərbəst oxumaq, danışmaq və yazmağı bacarırdı. Gəncə mədrəsəsində H.Cavid kimi filosof-şairdən, Abdulla Sur kimi tənqidçi-ədəbiyyatşünasdan dərs alan Cavad öz təxəllüsünü türkiyəli şair Əhməd Cavadın adından götürmüşdü. Beləliklə, eyni tarixi dövrdə türk dünyasında iki Əhməd Cavad yazıb-yaradırdı.

### Həbsinə səbəb olan şeir

1920-ci ilin aprel hadisələrindən sonra Ə.Cavadın hüquqları daim pozulur, orijinal yaradıcılığının inkişafına imkan verilmir. 1923-cü ildə Mirzəbala Məmmədzadənin Türkiyəyə qaçırılmasında Cavadı günahlandırıb həbs edirlər. Xuluq kəndində işləyərkən dostluq etdiyi müəllim yoldaşı H.Musayev M.C.Bağırovun yanına gəlir və şairin azad olunmasını xahiş edir. Bağırov onu eşidir.

Ə.Cavad ikinci dəfə haqqında danışacağımız “Göygöl” şeirinə görə həbs edilir. Bu şeiri oxuyan o zamankı rəhbərlərdən S.Ağamalıoğlu demişdi: “Kim deyər ki, Azərbaycanın Puşkini yoxdur? Cavad Azərbaycan ədəbiyyatının Puşkinidir. “Göygöl” doğrudan -doğruya Azərbaycan ədəbiyyatının incisidir”. Lakin şairin bədxahları bildirir ki, şeir antisovet ruhludur. Dərhal Ə.Cavadın həbs olunması əmri verilir.

Beş-altı ay çəkən sorğu-sualdan sonra “Göygöl”ə heç bir siyasi rəng verə bilmirlər və şairi həbsdən buraxırlar. Ə.Cavad 1920-1937-ci illərdə dəfələrlə həbs edilmiş, təqiblərə məruz qalmışdı. Nəhayət, 1937-ci il martın 21-də şairi Azərbaycan Yazıçılar İttifaqının üzvlüyündən azad edirlər. Həmin il iyun ayının 4-də onu H.Cavid, M.Müşfiq və V.Xuluflu ilə eyni vaxtda həbsə alırlar.

### 15 dəqiqəyə qəbul edilmiş qərar...

1937-ci il oktyabrın 22-dən 23-nə keçən gecə 15 dəqiqəlik məhkəmənin qərarı ilə ona güllələnmə kəsilir və tez bir zamanda icra olunur. Şairin sağ qalan ailə üzvlərinin taleyi isə daha ağır və faciəli olur. Şükriyyə xanım həyat yoldaşının ölümündən sonra “vətən xaininin arvadı” kimi uşaqları ilə birlikdə həbs edilir. Yeddi ildən sonra sürgündən azad edilsə də, ona Bakıda yaşamaq qadağan olunur. Yalnız 1955-ci ilin dekabrında ailə bəraət alır.

Tarix insan səhvlərini düzəldir. 1958-ci ildə Əhməd Cavadın “Şeirlər”, 1961-ci ildə “Sən ağlama, mən ağlaram” kitabı çap olunur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Əhməd Cavad Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilib.

Azərbaycan xalqının azadlığı və istiqlaliyyəti uğrunda mübarizə aparan, bu yolda “xalq düşməni” damğası ilə güllələnən Əhməd Cavad, zaman gəldi ki, xalqının qəhrəmanı kimi yenidən tarixin səhnəsində öz yerini, layiq olduğu zirvəni tutdu. Azərbaycan var olduqca bu yer onun olacaq...

*Yeganə BAYRAMOVA*

# 121 yaşlı metropoliten...

## Nyu-York metrosu necə inşa edildi?



1904-cü il oktyabrın 24-də açılan Nyu-York metrosu dünyanın ən köhnə ictimai nəqliyyat sistemlərindən biridir. Nyu-York metropoliteni dünyanın ən çox istifadə edilən, eləcə də ən çox stansiyaları olan metropolitendir. XIX əsrin ikinci yarısında Nyu-York şəhərinin planlı inkişafının başlaması ilə ilk nəqliyyat problemləri ortaya çıxdı. Bunları həll etmək üçün şəhər rəhbərliyi fəal şəkildə dəmir yolları qurmağa başladı. Ancaq bu da vəziyyəti düzəltmədi. Nyu-Yorkda metrodan əvvəl 95 metrlik bir tunel var idi - sıxılmış havanın enerjisi ilə hərəkətə gətirilən pnevmatik dəmir yolu sayılırdı. Bu daha çox təcrübə layihəsi idi. Ancaq ilk həftədə bundan 11 min vətəndaş istifadə etdi, bir il sonra isə say təxminən yarım milyona çatdı. Amma bu tunel 1898-ci ilə qədər işləyə bildi - daha sonra sıradan çıxdı.

**Əl əməyinin bəhrəsi...**

Elə həmin il mühəndis Villiam Parsons yeni bir metro layihəsini təklif etdi. Ancaq bir problem onun həyata keçirilməsinə mane olurdu. Belə ki, 4 ilə 6 metr dərinlikdə uzanan yolda olan monolit qayalar işi on qat artırdı. Buna görə mühəndis mümkün olduğu yerlərdə - şəhər küçələri altında tunellər qazmağı təklif etdi. Dayaqlarda isə yüksək stansiyaların qurulması ideyası irəli sürüldü. Beləliklə, Nyu-York metrosunun inşasına başlanıldı. O günlərdə müasir insanlar üçün istifadə edilə bilən texnologiyalar hələ mövcud deyildi, buna görə də işlərin çox hissəsi əl ilə aparılırdı.

**İki şirkətin rəqabəti...**

İlk metro xətti 4 ildə tikilib. Metronun rəsmi açılışı 24 oktyabr 1904-cü ildə baş tutdu. Həmin vaxt 24 stansiya açıldı. 1905-ci ildə daha yeddi açıldı. Birinci xətt IRT tərəfindən tikilib. Sonra başqa bir şirkət bu işə qoşuldu. İki şirkət arasında inşaat üçün şiddətli rəqabət başladı. 1913-cü ildə şəhər rəhbərliyi hər iki şirkətlə müqavilələr



bağladı. İnşaat isə o qədər də aktiv getmədi - kapital həcmi əhəmiyyətli dərəcədə artdı.

1932-ci ildə bu istiqamətdə IND dövlət şirkəti yaradıldı. 1940-cı ildə bu şirkət rəqibləri - BRT və IRT şirkətlərini satın aldı. Gələcək stansiyaların inşası isə artıq daha planlı şəkildə inşa edilməyə başlanıldı. Bir çox stansiyası yararsız olduğu üçün söküldü. 1953-cü ildə “New York City Transport Authority” yaradıldı. Nəticədə, dövlət metro üzərində tam nəzarəti əldə etdi.

Qeyd edək ki, Nyu-York metrosu hazırda dünyanın ən uzun beşinci metro sistemidir - ümumi marşrut uzunluğu 368 km-dir. Metro sistemi 24 xətt və 472 stansiya ilə işləyir. Sistemdəki stansiyaların təxminən 60 faizi yeraltıdır.

*Yeganə BAYRAMOVA*

*İdman*

## Azərbaycan güləşçisi: Rusiyalı idmançıdan revanş aldım




Mundiala yüksək səviyyədə hazırlıq keçmişdik. Bu da nəticələrdə özünü göstərdi. Bu sözləri AZƏRTAC-a açıqlamasında Serbiyanın Novi Sad şəhərində keçirilən U-23 dünya çempionatında qızıl medal qazanan Azərbaycanın yunan-Roma güləşçisi Elmir Əliyev deyib.

55 kiloqram çəki dərəcəsində çıxış edən idmançı 23 yaşadək güləşçilərdən ibarət dünya çempionatında ilk dəfə iştirak etdiyini bildirib: “Şükürlər olsun ki, çempionluq nəsib oldu. Bu, karyeramda ilkdir. Bizə dəstək olan hər kəsə minnətdarlığımı bildirirəm. Bundan öncə U-23 Avropa çempionatında bürünc mükafat qazanmışdım. Ani səhv ucbatından üçüncü olmuşdum. Lakin mundiala daha ciddi hazırlaşdıq. Məşqlərimiz yüksək səviyyədə keçdi”.

O, güclü rəqiblərlə qarşılaşdığını söyləyib: “Məlum məsələdir ki, dünya çempionatında zəif rəqib olmur. Mən də güclü idmançılarla güləşdim. Finalda rusiyalı Alibek Amirovla qarşılaşdım. Həmin güləşçiyə Avropa çempionatının yarımfinalında məğlub olmuşdum. Mənim üçün yaxşı revanş oldu. Ümid edirəm ki, gələcəkdə böyüklər arasında dünya və Avropa birincisi olaram”.

## VI İslam Həmrəyliyi Oyunlarında iştirak edəcək 12 cüdoçu...

Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda keçiriləcək VI İslam Həmrəyliyi Oyunlarında iştirak edəcək Azərbaycan cüdoçuları açıqlanıb. Azərbaycan Cüdo Federasiyasından AZƏRTAC-a bildirilib ki, ölkəmizi turnirdə 12 idmançı təmsil edəcək. Kişilərin mübarizəsində Ruslan Paşayev (66 kiloqram), Hidayət Heydərov (73 kiloqram), Elcan Hacıyev (90 kiloqram), Zelim Kotsoyev (100




kiloqram) və Uşanqi Kokauri (+100 kiloqram) qüvvələrini sınayacaqlar.

Qadınların yarışında isə Könül Əliyeva (48 kiloqram), Aydan Vəliyeva, Gültac Məmmədəliyeva (hər ikisi 52 kiloqram), Fidan Əlizadə (57 kiloqram), Südabə Ağayeva, Aytac Qardaşxanlı (hər ikisi 70 kiloqram) və Günel Həsənli (78 kiloqram) güclərini yoxlayacaqlar.

Noyabrın 8-10-da təşkil olunacaq cüdo yarışlarında 30-dan çox ölkənin idmançıları mübarizə aparacaqlar.

## “Qalatasaray” tarixi seriyaya imza atıb



Norveçin “Budyo Qlimt” klubuna 3:1 hesabı ilə qalib gələn Türkiyənin “Qalatasaray” komandası UEFA Çempionlar Liqasının əsas mərhələsində tarixi seriyaya imza atıb. AZƏRTAC xəbər verir ki, İstanbul nəhəngi 2012-ci ilin dekabrından bəri ilk dəfə qitənin ən nüfuzlu klub turnirində ardıcıl iki oyunu qalibiyyətlə başa vurub. Həmin mövsümdə komanda ardıcıl üç qələbə əldə etmişdi.

Superliqa təmsilçisinin nigeriyalı hücumçusu Viktor Osimhen bu uğurda əsas pay sahibi olub. O, avrokuboklarda ardıcıl 7 matçda qol vuran ilk “Qalatasaray” futbolçusu olub. Bu göstərici ilə forvard 2012/2013-cü illər mövsümündə 6 ardıcıl oyunda qol vuran Burak Yılmazın rekordunu yeniləyib. Bundan əlavə, Osimhen klub tarixində ÇL-da qarşılaşmanın birinci hissəsində iki dəfə fərqlənən ilk futbolçu kimi də yadda qalıb.

Qeyd edək ki, Türkiyə klubu ötən tur evdə İngiltərə “Liverpul”una minimal hesabla qalib gəlib.

## “Qarabağ”ın oyunçusu İspaniya futbolunun tarixinə düşüb

UEFA Çempionlar Liqasının (ÇL) əsas mərhələsində İspaniyada “Atletik” və “Qarabağ” komandaları arasında keçirilən III tur oyunu (3:1) bir sıra maraqlı statistik göstəricilərlə yadda qalıb. AZƏRTAC Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyasının (IFFHS) rəsmi saytına istinadla xəbər verir ki, Bilbao təmsilçisi tarixində ilk dəfə qitənin ən nüfuzlu klub turnirində hesabda geri düşdükdən sonra (0:1) məğlub olmayıb.



Ağdam təmsilçisinin futbolçusu Leandro Andrade 48-ci saniyədə fərqlənərək “Atletik”in ÇL tarixində buraxdığı ən erkən qolun müəllifi olub. Kaboverdeli yarımmüdafiəçi bu göstərici ilə 1998/1999-cu illər mövsümündə 1 dəqiqə 25 saniyəyə ispaniyalıların qapısına yol tapan Norveçin “Rusenborq” klubunun oyunçusu Yan Sorenseni geridə qoyub. Maraqlısı odur ki, Çempionlar Liqasında ilk dəqiqədə fərqlənən son 14 komandadan yalnız 4-ü qarşılaşmanı qələbə ilə başa vurub. “Atletik” bu turnirdə matçın ilk dəqiqəsində qol buraxıb qələbə qazanan ilk İspaniya klubu kimi tarixə düşüb.

La Liqa təmsilçisi “Qarabağ”la oyunadək Çempionlar Liqasında uzaq məsafədən qol vurmamışdı. Dünənki qarşılaşmada isə Bilbao təmsilçisinin hər üç qolu uzaq məsafədən reallaşıb. Bir mövsümdə eyni görüşdə üç uzaq məsafəli qola imza atan digər komanda oktyabrın 21-də İtaliya nəhəngi “Napoli”ni 6:2 hesabı ilə məğlub edən Niderlandın PSV kollektivi olub. “Atletik”in heyətində qolların ikisini Qorka Quruseta vurub. Hücumçu zərbələri hər iki ayağı ilə (sağ və sol) yerinə yetirib. Buna bənzər uğuru sonuncu dəfə Lionel Messi 2019-cu ildə “Barselona” forması ilə İngiltərənin “Mançester Yunayted” komandasına qarşı göstərmişdi.

Quruseta avrokuboklarda bir qarşılaşmada 2 və ya daha çox qol vuran 4-cü “Atletik”li futbolçu olub. Ondan əvvəl bunu Xose Luis Artetxe (1956), Merodio (1956) və İqnasio Uribe (1957) bacarıb.

## “Araz-Naxçıvan”ın oyunlarını idarə edəcək hakimlər açıqlanıb

UEFA Çempionlar Liqasının əsas mərhələsində iştirak edəcək “Araz-Naxçıvan”ın 7-ci qrupda keçirəcəyi ilk iki oyuna təyinatlar açıqlanıb. Azərbaycan Futzal Federasiyasından AZƏRTAC-a bildirilib ki, bu qrupun oyunları Rumıniyada keçiriləcək. qeyd edək ki, “Araz - Naxçıvan” oktyabrın




29-da Rumıniyanın “Yunayted Qalati” klubu ilə qarşılaşacaq.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4994**
**Sifariş: 2177**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova